

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Xalqımızı Qurtuluşa aparan BÖYÜK AZƏRBAYCANLI**




8


SƏS

№ 102 (7027)

8 iyun 2024-cü il.
Qiymәti 60 qәpik


# Azərbaycan Prezidenti İlham Əliyev Misirdə rəsmi səfərdədir




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 7-də Misir Ərəb Respublikasına rəsmi səfərə gəlib. Qahirə Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentini rəsmi şəxslər qarşılayıblar.

# Ermənistanda etirazlar kriminallaşır



4

## "Ermənistan başa düşməlidir ki..."



6

## 15 İyun – Milli Qurtuluş Günü: dövlətçilik tariximizin şanlı səhifəsi



5

## Soyuq su XƏSTƏLƏNDİRMİR?!



10

## Kənddə qal, məşğulluğunu təmin et!



13

## Əli Kərimlinin müavini iş başında yaxalandı



12



# Azərbaycan - Türkiyə: qardaşlıq və müttəfiqliyin gücü

## Prezident İlham Əliyev: "Hər zaman bütün məsələlərdə bir-birimizin yanındayıq"



***Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Türkiyə və Azərbaycan dünya çapında bir-birinə ən yaxın olan ölkələrdir.***

Əlbəttə ki, hər iki dövləti birləşdirən bir çox amillər var - tarix, mədəniyyət, ortaq etnik köklər, dilimiz, dinimiz, milli dəyərlərimiz, milli maraqlarımız. Bu birliyin və qardaşlığın sarsılmaz nümunəsinin Vətən müharibəsində bir daha şahidi olduq. "Türkiyə hər zaman Azərbaycanın yanında olub və İkinci Qarabağ müharibəsi başlayarkən cənab Prezident Rəcəb Tayyib Ərdoğanın çox açıq və dəqiq sözləri, - "Türkiyə Azərbaycanın yanındadır", - bizə əlavə güc verdi. Bu siyasi və mənəvi dəstək bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil və Türkiyə 44 gün ərzində bizim yanımızda oldu". Bu sözləri Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbulunda çıxışı zamanı bildirib. Dövlətimizin başçısı bildirib ki, hər gün həm Prezident, həm digər vəzifəli şəxslər açıqlamalar verərkən imkan yaratdı ki, biz bu haqlı davamızı Zəfərlə başa vuraq, "Çünki siz də yaxşı bilirsiniz ki, 44 gün ərzində Azərbaycana müxtəlif güc mərkəzlərindən çox böyük təzyiqlər olmuşdu. Hətta bəzi ölkələr bizi hədələyirdilər və belə bir çətin durumda Türkiyənin birmənalı dəstəyi, yenə də deyirəm, bizə əlavə güc verdi, inam verdi və bu dəstəyə görə biz minnətdarıq. Bütün Azərbaycan xalqı bunu bilir və qiymətləndirir".

### QARDAŞ ÖLKƏLƏRİN STRATEJİ TƏRƏFDAŞLIĞININ ZİRVƏSİ

Azərbaycanın 44 günlük Vətən müharibəsində Türkiyə qardaş, dost ölkə olaraq Azərbaycanın yanında oldu. Bu müharibə günləri bir daha göstərdi ki, dövlətlərarası münasibətlər həqiqətən də dostluğa, qardaşlığa söykənir. İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək hər kəsin sevincinə səbəb oldu. Heç kəsə sirr deyil ki, Türkiyə məlum münaqişənin həlli işində daim Azərbaycana böyük dəstək göstərib. Bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyə bayraqları dalğalanır. Üç il əvvəl iyunun 15-i Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Bu mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu və dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və mühüm tarixi sənəd ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin təntənəsi oldu. Dövlətlər arasında əməkdaşlığın strateji əhəmiyyət kəsb edən sahələrini əhatə edir. "Türkiyə və Azərbaycan 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışlar və rəsmi müttəfiq olmuşlar. Yəni bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır. Hər zaman bütün məsələlərdə bir-birimizin yanındayıq. Bir məsələ çıxan kimi, necə deyərlər, avtomatik rejimdə, gözüyumulu bir-birimizin yanındayıq. Bu birlik bütün Türk dünyasında olmalıdır və ondan sonra heç kim bizim işimizə müdaxilə edə bilməz", - deyə Prezident diqqətə çatdırıb. Bəyannamə müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafeləri müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın müstəqillik tarixinə əbədi həkk olundu və Azərbaycan-Türkiyə münasibətlərində keyfiyyətcə yeni bir dövrün başlanğıcını qoydu. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə dövlətlərarası gələcək iş birliyinin istiqamətini göstərir. Sənəddə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticari əlaqələr, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilməklə yanaşı, müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapır.

Ümumiyyətlə, Bəyannamə regionun yeni geostrateji reallıqlarını təsdiqləyən sənəd, həmçinin qardaş ölkələrin strateji tərəfdaşlığının zirvəsidir. Uğurla davam etdirilən Türkiyə-Azərbaycan birliyi qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulub. Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənib. Hərtərəfli inkişaf baxımından, həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır və dövlətlər arasındakı dostluq-qardaşlıq münasibətləri dünya üçün nümunəyə çevrilib. Dostluq və qardaşlığa söykənən Azərbaycan Türkiyə münasibətləri bu gün daha yüksək bir mərhələdədir. Azərbaycan-Türkiyə münasibətləri ən yüksək pilləyə - müttəfiqlik səviyyəsinə qədər yüksəlməsi mövcud əlaqələrin möhkəmliyinə, sarsılmazlığına əsaslanır.

### ƏSRƏ BƏRABƏR İNKİŞAF YOLU

Vətən müharibəsində qələbəmizdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfərləri qardaşlıq, dostluq mesajının daha bir təzahürüdür. Bu gün dünyada Türkiyə və Azərbaycan qədər bir-birinə mənəvi-siyasi cəhətdən yaxın olan ölkələr tapmaq mümkün deyil. İki ölkənin münasibətləri unikal bir nümunəyə çevrilib. Ümumiyyətlə, Bakı ilə Ankara arasında diplomatik münasibətlərin qurulduğu 30 ildən artıq müddət bir çox əlamətdar hadisələrlə, önəmli məqamlarla zəngindir, elə tarixin özüdür. Ötən dövrün mənzərəsinə nəzər saldıqda belə qənaətə gəlmək olur ki, iki ölkə bu müddət ərzində əsrə bərabər inkişaf yolu keçib, dostluq, qardaşlıq və müttəfiqlik münasibətləri ən yüksək nöqtəyə - zirvəyə çatıb. Ölkələrimiz arasında siyasi münasibətlər ən yüksək səviyyədədir. İqtisadi-ticari əlaqələr də uğurla inkişaf edir. Azərbaycan Türkiyədə, Türkiyə isə Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP, TAP kimi birgə layihələr regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa mühüm töhfələr verir. Bunlarla yanaşı, Azərbaycan və Türkiyə daim bir-birini ən yüksək səviyyədə dəstəkləyir, hər iki ölkənin milli maraqlarının qorunmasında qətiyyətli mövqe nümayiş etdirirlər. Daha dəqiq desək, Türkiyə və Azərbaycan nəinki regionda, eləcə də beynəlxalq miqyasda bir-birini ən sıx və yaxından dəstəkləyən ölkələr kimi çıxış edir.

Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq münasibətləri hazırda Cənab Prezidentimiz İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Cənab Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri altında ən yüksək səviyyədə davam etməkdədir.

İki ölkə, iki xalq xoş günlərin sevincini birgə bayram etdiyi kimi, ən çətin məqamlarda da bir-birilərinə arxa, dayaq durmağı bacarır. Əlbəttə ki, Azərbaycan ilə Türkiyə arasında olan bağlar, qardaşlıq və birlik bütün sahələr üzrə əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik yaradır. Qardaşlığın və müttəfiqliyin gücü

Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətləri uğurla inkişaf edir, bütün sahələri əhatə edir və bu əməkdaşlığın çox gözəl nəticələri vardır. Həm ikitərəfli formatda, həm regional müstəvidə Türkiyə-Azərbaycan qardaşlığı və birgə fəaliyyəti çox önəmli bir amilə çevrilib. Əminliklə söyləmək olar ki, Azərbaycan-Türkiyə birliyi bundan sonra daha böyük zirvələr fəth edəcək!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Milli Məclisin iclasında 13 məsələ müzakirə olunub

***Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin 2024-cü ilin növbədənkənar sessiyasının ilk iclası keçirilib. Parlamentin sədri növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycanın Dövlət Himni səsləndirilib. S.Qafarova iyunun 5-6-da Milli Məclisdə keçirilən Türk Dövlətləri Parlament Assambleyasının 13-cü Şura və plenar iclasları, Assambleyanın Qadın Parlamentarilər Qrupunun və Gənc Parlamentarilər Qrupunun toplantıları, həmçinin parlament Baş katiblərinin birinci görüşü barədə məlumat verib.***



Sonra o, iclasın gündəliyinə 13 məsələnin daxil edildiyini söyləyib. Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumatı təqdim edib.

O diqqətə çatdırıb ki, 2024-cü ilin dövlət büdcəsi haqqında qanun layihəsi qəbul olunarkən dövlət büdcəsi gəlirlərinin 34 173 milyon, xərclərinin 36 763 milyon, dövlət büdcəsi kəsirinin isə 2 590 milyon manat olacağı planlaşdırılmışdı. Bildirilib ki, yenidən baxılan dövlət büdcəsinin gəlirlərinin 2 180.0 milyon manat artırılaraq 36 353.0 milyon manata, xərclərinin 2 944.3 milyon manat artırılaraq 39 707.3 milyon manata, kəsirin 764.3 milyon manat artırılaraq 3 354.3 milyard manata çatdırılması təklif olunur.

Sonra iclasda maliyyə naziri Samir Şərifov çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini açıqlayıb. Cari ilin ötən 4 ayı üzrə makroiqtisadi və fiskal göstəriciləri barədə danışan nazir qeyd edib ki, 2024-cü ilin yanvar-aprel aylarında ölkədə 38,2 milyard manatlıq, o cümlədən qeyri-neft/qaz sektorunda 24,2 milyard manatlıq ÜDM istehsal olunub.

Bildirilib ki, 2024-cü ilin 4 ayında dövlət büdcəsinin gəlirləri 12 milyard 144 milyon manat proqnoza qarşı 13 milyard 259 milyon manat olub. 2024-cü ilin yanvar-aprel ayları üzrə dövlət büdcəsinin gəlirlərinin 6 milyard 867 milyon manatı qeyri-neft sektorunun payına düşüb ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 434 milyon manat və ya 6,8 faiz çoxdur. Dövr ərzində dövlət büdcəsinin gəlirlərinin tərkibində qeyri-neft sektoru üzrə daxilolmaların xüsusi çəkisi 51,8 faiz təşkil edib.

Maliyyə naziri nəzərə çatdırıb ki, yenidən baxılma ilə dövlət büdcəsi xərclərinin artımı hesabına bir sıra prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşməsi üçün əlavə maliyyə təminatı yaradılır. Belə ki, bu tədbirlər sırasında işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinə 1 milyard 160 milyon manat, dövlətin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması üçün 807 milyon manat, ölkənin digər regionlarında avtomobil yolu, elektrik enerjisi, su təchizatı və digər sahələr üzrə infrastruktur layihələrin maliyyələşdirilməsi üçün 977 milyon manat yönəldilməsi nəzərdə tutulur.

Bildirilib ki, yenidən baxılma ilə 2024-cü il icmal büdcənin gəlirləri 43 milyard 480 milyon manat, xərcləri isə 45 milyard 592 milyon manat proqnozlaşdırılır. İcmal büdcənin kəsirinin məbləği təsdiq olunmuş göstəriciyə nisbətən 37,5% və ya 1 milyard 267 milyon manat az olacaq. Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlir və xərcləri bərabər səviyyədə olmaqla 539,3 milyon manat təşkil edəcək.

Sonra iclasda "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələri təqdim olunub. Məsələlər barədə məlumatı parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib.

Sonra komitə sədri Musa Quliyev "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsinə dair məlumat verib. O diqqətə çatdırıb ki, layihədə işsizlikdən sığorta haqları üzrə daxilolmaların 4 700 000,00 manat artırılaraq 179 976 800,0 manatdan 184 676 800,0 manata çatdırılması təklif olunur. Artım qeyri-büdcə sektoru üzrə sığorta haqları hesabına baş verəcək.

Plenar iclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə, "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə və "İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinə dair Palatanın rəyini təqdim edib.

Məsələlər ətrafında aparılan müzakirələrdə çıxış edən komitə sədri Siyavuş Novruzov, deputatlar Vüqar Bayramov, Elşən Musayev, Nurlan Həsənov, Elnur Allahverdiyev, Elşad Mirbəşir oğlu öz fikirlərini, qeyd və təkliflərini bölüşüblər. Sonra hər üç qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul olunub. Daha sonra "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini (ikinci oxunuş) müzakirəyə çıxarılıb.

Tahir Mirkişili bildirib ki, 2023-cü ildə dövlət büdcəsinin gəlirləri 33 890,5 milyon manat proqnoza qarşı 35 236,4 milyon manat təşkil edib. Gəlirlər proqnozla müqayisədə 4 faiz çox icra olunub.

2023-cü ildə vergi orqanları xətti ilə dövlət büdcəsinə daxilolmalar 16 126.7 mln manat (proqnozdan 1 139.7 milyon manat çox), Dövlət Gömrük Komitəsinin xətti ilə dövlət büdcəsinə daxilolmalar isə 6 337.8 milyon manat (proqnozdan 609.8 milyon manat çox) olub.

Digər istiqamətlər üzrə dövlət büdcəsinə daxilolmaların müsbət dinamikası çatdıran komitə sədri ötən ilin büdcəsinin xərc istiqamətləri barədə danışıb. Bildirilib ki, keçən ilin dövlət büdcəsində təsdiq olunmuş 36 624.8 milyon xərcin 99.5%-i icra olunub. Sosialyönlü xərclər 2023-cü il dövlət büdcəsinin icrasında 13050,4 milyon manat və ya xərclərin 35,8 faizi həcmində olub. Komitə sədri 2023-cü ilin dövlət büdcəsini icrasının dövlət qarşısında duran hədəflərə nail olmaq üçün lazımi maliyyə təminatını yaratdığı vurğulayıb. Sənədin müzakirəsində deputatlar Etibar Əliyev və Aydın Hüseynov çıxış ediblər, layihə ilə bağlı fikirlərini bildiriblər.

Sonra maliyyə naziri Samir Şərifov 2023-cü ilin dövlət büdcəsinin icrası ilə bağlı parlament müzakirələrində qaldırılan məsələlərə aydınlıq gətirib, deputatların qeydlərinə münasibət bildirib. Deputatlar "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini ikinci oxunuşda qəbul ediblər.

Daha sonra üçüncü oxunuşda müzakirəyə çıxarılan "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi səsə qoyularaq qəbul olunub.

İclas birinci oxunuşda olan "Məşğulluq haqqında" Qanunda, Ailə Məcəlləsində, Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" və "Avtomobil nəqliyyatı haqqında", "Mühasibat uçotu haqqında", Ailə Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, Vergi Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Gömrük tarifi haqqında" və "Lisenziyalar və icazələr haqqında", həmçinin "Auditor xidməti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihələrinin müzakirəsi ilə davam edib. Qanun layihələri səsə qoyularaq birinci oxunuşda qəbul edilib. Bununla Milli Məclisin 2024-cü ilin növbədənkənar sessiyasının ilk iclası başa çatıb.

## Kanada mətbuatı Vardanyanı ifşa etdi!

***"Ruben Vardanyan Qarabağda erməni terrorçularının Azərbaycana qarşı müqavimətinin əsas maliyyə donoru olub." Bu barədə İsrailin sabiq rabitə, peyk və kibertəhlükəsizlik naziri, İqtisadi Sülh Mərkəzinin prezidenti, tanınmış siyasətçi və politoloq Ayub Kara Kanadanın nüfuzlu "Thej.ca" nəşrində dərc olunmuş "Ukrayna Ruben Vardanyana qarşı niyə sanksiyalar tətbiq etdi?" sərlövhəli məqaləsində yazıb. Qeyd olunub ki, Qarabağdakı separatçı rejimdə "dövlət naziri" olmuş Vardanyan Azərbaycanın təhlükəsizlik qüvvələri tərəfindən həbs edilib. O, Azərbaycana qarşı terrorçuluğu maliyyələşdirməkdə, beynəlxalq sərhədləri qanunsuz keçməkdə, Ermənistanla Azərbaycan arasında sülh prosesini sabotaj etməkdə, Azərbaycana qarşı erməni terror təşkilatları ilə qarşılıqlı əlaqədə ittiham olunur.***

Son aylar mediada Vardanyanın adının əsasən Qarabağ və həbs kontekstində hallandığına diqqət çəkən müəllif erməni separatçısının uzun müddət beynəlxalq münaqişələrdə separatçılara dəstək göstərdiyini də vurğulayıb. Belə ki Rusiya ilə Ukrayna arasında hərbi qarşıdurma başladıqdan sonra Ukrayna tərəfi Vardanyana qarşı sanksiyalar tətbiq edərək barəsində axtarış elan edib. Erməni milyarder İran silahlarının Rusiyaya satışında əsas vasitəçilərdən olub. Eyni zamanda, diqqətə çatdırılıb ki, Rusiya-Ukrayna münaqişəsi səbəbindən Qərbin sonuncuya qarşı təzyiqlərə başlamasından sonra Vardanyan Rusiyanı tərk edərək bu ölkənin vətəndaşlığından imtina edib.

Sabiq nazir yazısının sonunda bildirib: "Düşünürəm ki, Vardanyanın Qərbin sanksiyalarına məruz qalan şəxslər siyahısına salınmasın səbəbi ilə bağlı sualınıza artıq cavab tapdınız. Bu adamın həm Ermənistanda, həm də Tehranda Rusiyanı Ukrayna ilə münaqişədə dəstəkləyən Kreml tərəfdarları ilə əlaqələri var. O, həmçinin yüksəkrütbəli məmurların pullarının yuyulmasını təmin edib. Özünün bəxtsizliyindən, Ukraynanın bəxtindən isə Vardanyan hazırda Azərbaycanda həbsdədir". Məqaləni ətraflı şəkildə aşağıdakı linkdən oxumaq mümkündür:

https://www.thej.ca/2024/05/31/why-ukraine-sanctioned-ruben-vardanyan/



# Ermənistanda etirazlar kriminallaşır

***"Vətən uğrunda Tavuş" hərəkatının lideri Baqrat Qalstanyan bildirib ki, iyunun 9-da axşam İrəvanın "Respublika" meydanında daha bir böyük mitinq keçiriləcək. Beləliklə, müxalifət bir keşişin rəhbərlik etdiyi hərəkatın Tavuş bölgəsindən paytaxta çatmasından sonra ilk ayı qeyd edəcək. Qalstanyanın komandası deyir ki, o, "vacib, oyunu dəyişdirən çıxış" edəcək. Bununla bağlı Ermənistanın baş naziri Nikol Paşinyanın əleyhdarlarından ən azı 100 min insanı küçələrə çıxarmağa çağırılır.***



Paşinyanın rəqibləri həlledici günü seçiblər

Qalstanyan artıq müvəqqəti Nazirlər Kabinetinin formalaşdırılması ilə bağlı ilk tezislərini açıqlayıb. Birincisi, hakimiyyət






müxtəlif siyasi qüvvələrin tərəfdarları arasında barışıq əldə edəcək. İkincisi, müstəqil xarici siyasət yürütməyə çalışacaq. Üçüncüsü, ədalət prinsipini pozmamaq üçün "müəyyən müddətdə" növbədənkənar parlament seçkiləri olacaq. Bundan əvvəl isə Qalstanyan baş nazir olmaq istədiyini bildirib. Lakin onun hökumətinə kimi qəbul etməyə hazır olduğu hələlik məlum deyil. Müxalifətçinin sözlərinə görə, indiki hakimiyyət adları bilən kimi həmin şəxsləri təqib etməyə başlayacaq. Buna baxmayaraq, ehtimal etmək olar ki, onun tərkibinə parlamentdəki "Mənim namusum var" və "Ermənistan" fraksiyaları ilə əlaqəli siyasətçilər də daxil olacaq, onlar artıq Paşinyanın impiçmentini təşkil etməyə hazır olduqlarını bəyan ediblər.

Xüsusilə, Ermənistanın eks-prezidenti Serj Sarkisyan Qalstanyanla görüşüb. Bu barədə müxalifətin "Hraparak" qəzetinin yazdığına görə, "Vətən uğrunda Tavuş" hərəkatının lideri keçmiş dövlət başçısına əvvəlcə Paşinyanı parlament proseduru ilə dərhal istefaya göndərəcəyinə ümid etdiyini, lakin sonra küçənin o tayında ona təzyiq etmək qərarına gəldiyini deyib. Öz növbəsində Sarkisyan Qalstanyan Tavuş bölgəsindən İrəvana çatmamışdan əvvəl hərəkatı dəstəklədiyini və "Nikoldan qurtulmağa" kömək etməyə hazır olduğunu bildirib.

"9 iyun mitinqi Baqrat üçün vəziyyəti öz xeyrinə çevirmək üçün son şansdır. Qeyri-adi nəsə etmək lazımdır, heç olmasa küçə toqquşmaları təşkil etmək lazımdır... Əks halda onun etirazı sönəcək. Hələlik belədir: hər gün onun ətrafına getdikcə daha az tərəfdar toplaşır. O, vaxtaşırı maraqlı nəsə vəd edir, insanlar gəlir, amma belə bir şey olmur və bu, ona olan inamı daha da əridir", – İrəvandan olan proqramçı Gevorq deyib. "Dostlarımın çoxu inanır ki, insanlar gücsüzlüklərindən əsəbiləşərək Baqratın ətrafına toplaşıblar. Üstəlik, qəzəb onları daha da zəifləldir. Məsələn, deyirlər ki, onlarla razılaşmayan hər kəs türkdür və ya Qərbdən pul alır. Və sonda mütləq ölümlə hədələyirlər. Bu, ancaq hakimiyyətin əlindədir. Bu cür müxalifət insanları qorxuda bilər", – digər İrəvan sakini, həkim Hayk hesab edir.




Eyni zamanda hər iki həmsöhbət qeyd edib ki, Baqrat Qalstanyanın özü ehtiyatlı davranmağa çalışır. Onu xarizmatik lider və yaxşı natiq kimi görürlər, baxmayaraq ki, onun konkret heç nə demədiyini qeyd edirlər, ona görə də deyəsən, müstəqil fəaliyyət göstərmir. Bu arada Paşinyanın komandası hökumət başçısının imicini gücləndirmək üçün deyil, rəqiblərini gözdən salmaq üçün fəaliyyətə başlayıblar. Məsələn, hakimiyyətə bağlı media Qalstanyanın hərəkatının iki üzvünün müxalifətin mitinqlərində iştirak edənlərə 5 min dram (1144 rubl) ödənilməsini müzakirə etdiyi və çətin "iş" şəraitindən şikayət etdiyi audioyazı yayıb. İstintaq Komitəsi insanlara rüşvət verməmaddəsi ilə cinayət işi açıb və artıq əsas şübhəli şəxsi saxlayıb. Öz növbəsində Qalstanyanın ətrafında olanlar deyiblər ki, həqiqətən də söhbət olub, amma media "Qarabağ ləhcəsi"ndən bir sözü erməni dilinə səhv tərcümə edib, ona görə də bütün mənа səhv çatdırılıb. Əslində, onlar pul transferini yox, ayaqqabıları müzakirə ediblər, müxalifət əmin edir.

Bundan başqa, iyunun 3-də Qalstanyan özü Artur və Artak Sarkisyan qardaşlarını öz mitinqinin səhnəsinə dəvət edib. "Keniyadan olan çox əziz qohumlarımız və dostlarımız. Onlar çox maraqlı ermənilərdir, canlarını və həyatlarını fəda edirlər. Artakın beş, Arturun səkkiz uşağı var", - Qalstanyan qeyd edib. Artak cavab verib ki, keşişin apardığı mübarizə "ən düzgün"dür, ona görə də ona qoşulublar. Bu arada Ermənistanda "qardaşlar" 2023-cü ildə İrəvan Ağsaqqallar Şurasına seçkilər zamanı peyda olublar. Artur Qalstanyanın ən yaxın adamlarından biri olan müxalifətçi Suren Petrosyanı dəstəkləyirdi. Təbii ki, Ermənistan hakimiyyəti müxalifət hərəkatını gözdən salmaq üçün bundan istifadə edib.

"Çətin ki, Qalstanyanın bazar günü keçiriləcək mitinq Ermənistan üçün əlamətdar hadisə olsun. Yenə də onun hərəkatı bütün ay ərzində sönmək yolundadır və qarşısına qoyduğu məqsədlərin heç birinə nail ola bilməyib: Paşinyanın impiçmentinin başlaması, yolların blokadaya alınması və s. Amma bu, o demək deyil ki, Paşinyan əvvəllər düşündüyündən də güclüdür və ya mövqeyini möhkəmləndirib. Əksinə, ölkənin bütün siyasi sistemi, o cümlədən iqtidar və müxalifətin legitimliyi zəifləyir", - politoloq Arşaluys Mqdesyan bildirib.

### Bu arada...

Ermənistan mətbuatı Baqratın etiraz üsulunu ələ salan məqalələr tiraşlayır. "Armenianreport" isə bunları yazıb: "Baqrat sadəcə, yüksək səslə, mürəkkəb suallara cavab axtaran kütləni qızışdıra bilən bir şey söyləmək istəyir, lakin bunun üçün heç bir məsuliyyət daşımamaq kimi iddiasını da gizlətmir! Təəssüflər olsun ki, müxalifət yeni lideri ilə Paşinyanı devirəcəyini düşünür, amma yanılır. Artıq bir aya yaxındır ki, Ermənistanda "yorulmaz" Baqrat Qalstanyanın müxalifətçi, bəzən kortəbii, bəzən də süni şəkildə dəstəklənən "Vətən naminə Tavuş" hərəkatı davam edir. Əsasən Nikol Paşinyanın siyasətindən razı olmayan vətəndaşlar etirazçılara qoşulur.

Ermənistanda bir çoxları - həm hakimiyyət düşərgəsindən, həm də vətənpərvərlik şüarlarından istifadə edən Tavuş hərəkatı "köhnə" qüvvələrdən - Paşinyanın 6 ildən çox əvvəl devirdiyi qüvvələrdən ilhamlanıb. Əgər hərəkatın liderlərindən biri – deputat Qarnik Danielyan – Köçəryanın idarə etdiyi "Ermənistan" fraksiyasının nümayəndəsi, onun fraksiyadakı həmkarı – ikinci prezidentin oğlu Levon Köçəryan bu qədər səylə sübut edibsə, bunu inkar etmək çətindir. Cümə günü isə Ermənistanın digər eks-prezidenti Serj Sarkisyan birmənalı olaraq Ermənistan Respublikasının baş naziri postuna Baqrat Qalstanyanı dəstəklədiyini bəyan edib.

Putin Rusiyasının bu hərəkata mümkün dəstəyi haqqında da çox danışılır. Bəli, dünən həm Putin, həm də Mişustin Paşinyanı ad günü münasibəti ilə təbrik etsələr də, ruslar bizə selin apardığı dəmir yolunu təmir etməyə kömək etsə də, bu, ümumi mənzərəni dəyişmir: Kreml Nikol Paşinyan rejimini sevmir və onun siyasi vektorunu dəyişmək üçün çalışır.

Beləliklə, biz çox gözəl başa düşürük ki, "köhnə rejim"in Baqrat Srbazanın hərəkatında iştirakı faktdır və Rusiyanın ona rəğbət bəsləməsi ehtimalı yüksəkdir. Amma indi "Vətən üçün Tavuş" hərəkatının Sarkisyan və Köçəryanla qohumluğundan deyil, Nikol Paşinyanın erkən inqilabi hərəkatı ilə müəyyən oxşarlıqdan danışmaq yerinə düşər. 2018-ci ildə erməni dilində səslənən təsirli "Serji rədd et" şüarı altında fəaliyyət göstərən "Addım atın" hərəkatı kimi, Baqrat Srbazan tərəfdarları da yolları, küçələri və dövlət əhəmiyyətli magistralları bağlayırlar. Bununla da tıxac yaratmaq və erməni cəmiyyətinin müəyyən hissəsinin haqlı qəzəbinə səbəb olur.

### "Baqratçılar"ın açıq populizmi

Baqrat Qalstanyan kimdir? Sadəcə xidməti dayandırılmış ruhani lider. Baqrat Srbazan hətta Parlamentin deputatı da deyil. O, xalqın adından, hətta dini, mənəvi, əxlaqi, ən dünyəvi və siyasi mühakimələri səsləndirə bilərmi? Cavab bəllidir, "yox". İkincisi, əgər ruhani atanın bəxti gətirsə və o, ya baş nazir və yaxud ən azından hansısa yüksək dövlət postunu tutsa, onda nədənsə danışmaq olar. Ermənistanda hakimiyyətə gəldikdən ertəsi gün, ancaq böhrandan çıxmaq üçün proqram təqdim etdikdən, Paşinyanın bağladığı ziddiyyətlərin dolaşıqlığını açandan, idarəçilik, iqtisadi, hərbi mənada dövlətçiliyi gücləndirəndən, geosiyasi müttəfiqlər haqqında qərar verəndən, bir sözlə, Ermənistanı ayağa qaldırandan sonra Ermənistan-Azərbaycan münasibətlərinə yenidən baxmaq mümkün olacaq.

**V.VƏLİYEV**

BAXIŞ BUCAĞI

# 15 İyun – Milli Qurtuluş Günü: dövlətçilik tariximizin şanlı səhifəsi

## *SƏS Media Qrup və ADNSU Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirib*

***İyunun 7-də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və "SƏS" Media Qrupun birgə təşkilatçılığı ilə 15 iyun - Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. SİA xəbər verir ki, ADNSU-da keçirilən tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil qoyulub, xatirəsi dərin ehtiramla yad edilib. Tədbir Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb.***









Daha sonra SƏS Media Qrupunun hazırladığı "Xalqın taleyini dəyişən Zəfər Günü" adlı film nümayiş etdirilib. Tədbirdə SƏS Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev, ADNSU-nun rektor əvəzi YAP İdarə Heyətinin üzvü, dosent Vazeh Əskərov, YAP Veteranlar Şurasının üzvü Xeyrəddin Qoca, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev, universitetin müəllim və tələbə heyəti, media nümayəndələri iştirak ediblər.

Açılış nitqi ilə çıxış edən ADNSU-nun rektor əvəzi, dosent Vazeh Əskərov 90-cı illərin əvvəllərində ölkədəki siyasi proseslərdən, Milli Qurtuluş Gününün yaranma tarixindən və Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən söz açıb. Qeyd edib ki, Ümummili Lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkədə ictimai-siyasi sabitliyin təmin edilməsi istiqamətində əsaslı addımlar atıldı, iqtisadi tənəzzülə son qoyuldu, hüququn aliliyinə əsaslanan idarəetmə sistemi yaradıldı, səhiyyə, təhsil və digər bütün sahələrdə inkişafın təməli qoyuldu.

15 iyun – Milli Qurtuluş Gününün Azərbaycan tarixindəki önəmindən bəhs edən Vazeh Əskərov həmin günün Azərbaycan tarixində mühüm mərhələnin başlanğıcı kimi tariximizə qızıl hərflərlə həkk olunduğunu deyib. Dahi Lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində bu gün Azərbaycanın beynəlxalq arenada qüdrətli, regionda müstəqil, güclü dövlətə çevrildiyini deyən dosent Vazeh Əskərov Ulu Öndərin dövlətçilik ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla və dinamik formatda davam etdirildiyini diqqətə çatdırıb.

Növbəti çıxışda YAP Veteranlar Şurasının üzvü Xeyrəddin Qoca deyib ki, Heydər Əliyev hakimiyyətə gələndə Azərbaycan dağılmaq üzrə idi: "Həmin dövrdə Azərbaycan rəhbərliyi zəif və qeyri-peşəkar idi. Bir qrup ziyalı Heydər Əliyevə müraciət edərək xalqın Onun hakimiyyətə gəlməsini istədiyini bildirdilər. Təkidli tələbdən sonra xalqı düşdüyü bəladan qurtarmaq üçün Ulu Öndər Bakıya qayıtdı. Xaosa, anarxiyaya son qoyuldu. 1969-cu ildə də Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gələrkən də Azərbaycanda rüşvətxorluğun tüğyan edirdi, böyük çatışmazlıqlar var idi, Azərbaycan aqrar respublika kimi tanınırdı. Ulu Öndərin sovet hakimiyyəti illərində hakimiyyətə gəlişindən sonra Cəmşid Naxçıvanski adına Hərbi Lisey fəaliyyətə başladı, ordu quruculuğunda mühüm işlər görüldü, həmçinin ölkə iqtisadiyyatı gücləndi".




Xeyrəddin Qoca Heydər Əliyevin müsəlman şərqinin böyük insanı, əsl azərbaycanlı olduğunu





vurğulayıb. O, bütün bunların fonunda Ümummilli Lider Heydər Əliyevin böyük düşüncəyə sahib insan olduğunu diqqətə çatdıraraq çıxışını yekunlaşdırıb.

Daha sonra çıxış edən "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev bildirib ki, Ulu Öndər Heydər Əliyev haqqında danışanda Onun Azərbaycan xalqının düşüncəsində tarixi bir şəxsiyyət, hətta tarixin özü olduğunu görürük. Dahi Lider Heydər Əliyevin Azərbaycan xalqının mübarizə mənbəyi olduğunu bildirən Alqış Musayev iki əhəmiyyətli gün barədə danışıb. Onun fikrincə, 1993-cü il Milli Qurtuluş Günü və 2003-cü il Prezident seçkiləri günü nəinki bölgənin, bütün ölkənin taleyini həll etdi. Üstündən çox vaxt keçməməsinə baxmayaraq dövlət başçısı İlham Əliyevin bütün dünyanı təəccübləndirdiyini, dünyanı heyrətləndirərək Azərbaycana hörmət etməyə məcbur etdiyini qeyd edən Alqış Musayev dünya dövlətlərinin artıq bizimlə hesablaşdıqlarını da bura əlavə edib. O bildirib ki, bu gün Prezident İlham Əliyev Azərbaycanın namusunu hifz edib, bayrağını ən yüksək yerdə ucaldıb. "Eşq olsun bizi bu günə gətirib çıxaran yola və bu yolun sahibinə!", sözləri ilə çıxışını sonlandıran Alqış Musayev hər kəsi bu tarixi gün münasibətilə təbrik edib.

Sonda çıxış üçün söz SƏS Media Qrupunun rəhbəri, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyevə verilib. Media Qrupun rəhbəri bildirib ki, tələbələr üçün Ümummilli Lider Heydər Əliyevi yaxından tanımaq, dərk etmək çox vacibdir: "Tələbələr bilməlidirlər ki, biz nədən xilas olduq. Biz çörək növbələrindən, xaosdan, anarxiyadan, dağılmaqdan, məhv olmaqdan qurtulduq. Ölkə ziyalıları Azərbaycanın dövlət müstəqilliyini məhv olmaqdan xilas etmək üçün 1992-ci ilin oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə Ümummilli liderimiz Heydər Əliyevə "Azərbaycan sizin sözünüzü gözləyir" adlı tarixi müraciət etdilər. Ulu Öndərin bu müraciətə 1992-ci il 24 oktyabr tarixli cavabı da "Səs" qəzetində dərc olundu. Heydər Əliyevin "Yeni, müstəqil Azərbaycan uğrunda" başlıqlı tarixi cavabı beş bənddən ibarət idi. Bu müraciətdə həm Azərbaycanın düşdüyü mürəkkəb vəziyyət, həm də çıxış yolları göstərilirdi. Ulu Öndər ölkəni fəlakətdən, dağılmaqdan qurtarmaq üçün birinci atəşkəsə nail olmaq, ikinci fundamental iqtisadi platformaların həyata keçirmək, üçüncü qanunların aliliyini rəhbər tutmaq, insan hüquqlarının qorunmasını təmin etmək, dördüncü dövlət idarəçiliyində kadrların yerləşdirilməsində bacarıqlı kadrlara üstünlük vermək, milli dövlətin yaranması və güclənməsi prosesində siyasi mənsubiyyəti kənara qoymaq, beşinci dövlətçiliyimizə qarşı yönəlmiş dağıdıcılıq meyillərinə son qoymaq və Azərbaycanımız uğrunda dini və etnik mənsubiyyəti kənara qoymaq və Azərbaycançılıq ideyası uğrunda birləşməyi vacib hesab edirdi. Çox təəssüflər olsun ki, bu konsepsiyaya əməl edən lider yox idi. Ona görə də xalqın təkidi ilə Heydər Əliyev hakimiyyətə gəldi. O, Azərbaycan vətəndaşına Vətəni sevməyi, milli kimliyini, milli mənsubiyyətlə fəxr etməyi öyrətdi".

Bəhruz Quliyev deyib ki, Ümummilli lider Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri var: "Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Onun irsini davam etdirən, dünyada ən yenilikçi lider kimi, Qalib Sərkərdə kimi adını qızıl hərflərlə tarixə yazan müzəffər Ali Baş Komandan İlham Əliyev isə Azərbaycan xalqına tarixi zəfər yaşadıb. Məhz İlham Əliyev Xalqı "Qalib" statusuna qovuşdurub".

Sonra Milli Qurtuluş Gününə həsr olunmuş tədbirə yekun vurulub.

# “Ermənistan başa düşməlidir ki...”

*Rəsmi Bakıdan Ermənistan XİN-ə cavab*



***“Ermənistan Xarici İşlər Nazirliyinin bu ölkənin qonşularına qarşı ərazi iddiaları irəli sürməsi faktını təkzib etməyə yönəlmiş 7 iyun tarixli bəyanatı, əslində, beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycan ilə Ermənistan arasında sülhə nail olmaq üçün manеə təşkil edən çağırışlardan yayındırmaq niyyətindən başqa bir şey deyil.”***

SİA xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan Xarici İşlər Nazirliyinin 2024-cü il 7 iyun tarixli bəyanatına dair şərhində yer alıb. A.Hacızadə bildirib: “Bu gün həqiqətən də əsas problem başda “Ermənistan və Dağlıq Qarabağın birləşməsi”nə çağıran Ermənistanın Müstəqillik Aktına açıq şəkildə istinad edən Ermənistan Konstitusiyası olmaqla, bu ölkənin çoxsaylı hüquqi və siyasi sənədlərində təsbit edilmiş Azərbaycana qarşı davam edən ərazi iddialarıdır.

Azərbaycanın milli təhlükəsizliyinə bilavasitə təsir edən bu iddianın Konstitusiyadan çıxarılmasını tələb etməyə legitim hüququ var və bu, Ermənistanın daxili işlərinə müdaxilə kimi qələmə verilə bilməz. Ermənistan Xarici İşlər Nazirliyinin bu problemin gözardı edilə biləcəyi ilə bağlı məntiqi bu ölkənin dayanıqlı sülhdə maraqlı olmadığını və yalnız bu vəziyyəti gələcəkdə yenidən Azərbaycana qarşı təcavüzə başlamaq üçün ehtiyat variant kimi saxlamağa çalışdığını göstərir. Bununla yanaşı, Ermənistanın keçmiş münaqişənin qalığı olan Minsk qrupunun bərpasına yönələn cəhdləri və hərbiləşmə siyasətini davam etdirməsi bu ölkənin Azərbaycana qarşı gizli gündəminin mövcud olduğunu nümayiş etdirir. Bundan əlavə, Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan “heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz” müddəasını qeyd edərək, bu ölkənin Konstitusiyasında mövcud olan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi tamamilə əsassızdır. Heç bir beynəlxalq sazişin konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır.

Azərbaycanın sülh prosesi təşəbbüsü ilə çıxış etdiyini və ilkin layihəsi məhz Azərbaycan tərəfindən təqdim edilmiş sülh sazişi üzrə danışıqlar aparmağa Ermənistanı təşviq etdiyini nəzərə alaraq, bu ölkənin Azərbaycan tərəfinin sülh prosesində səmimiliyini şübhə altına almağa heç bir mənəvi əsası yoxdur. Ermənistan başa düşməlidir ki, regionda sabitliyi və sülhü təmin etməyin yeganə yolu qonşu ölkələrlə suverenlik və ərazi bütövlüyünün tanınması, habelə onlara riayət olunması əsasında münasibətlər qurmaq, həmçinin bu istiqamətdə təhlükə yaradan çağırışları aradan qaldırmaqdır”.

# “Biz Azərbaycanın sahibləriyik, bu torpaq bizimdir”



MÜNASİBƏT

“Köç prosesi ağrılı, uzun çəkən, fundamental prosesdir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib. O bildirib ki, biz ”Böyük Qayıdış”, insanların köçü, bərpa, quruculuq işləri deyəndə görürük ki, nə dərəcədə burada işdən iş çıxır: ”Bu bizə əvvəldən bəllidir. Həqiqətən də, biz ermənilərin qoyduğu ”irsin” acısını çox yaşayacağıq. ”Böyük Qayıdış”dan sonra bir neçə yüz insanımız minalardan tələf olub. Minaların fəsadları, təhlükələri hələ bir neçə il başımız üstündə qara kabus kimi qalacaq. Amma buna baxmayaraq biz proseslərin hamısında inadkarlıq və dönməzlik göstərməliyik. Əgər əyilməz olsaq, biz bütün prosesi lazımi qaydada həyata keçirəcəyik. Əlbəttə, bu işdə dövlət başçısı Prezident İlham Əliyevin şəxsi qətiyyəti, yanaşması, konseptual gedişləri bizi inandırır ki, artıq vaxt itkisinə imkan verməli deyilik. Sirr deyil ki, böyük maliyyə tutumlu işlərdir. Texnoloji və texniki baxımdan yüngül başa gələn işlər deyil. Ancaq bu çağırışların, tələbatın qarşısında ancaq irəli getməliyik. Tədricən insanlar bərpa olunan şəhərlərə qayıdırlar. Füzuli, Laçın, Ağdam, Xocalı şəhərləri də bura daxildir, bunlar bir günün işi deyil. Süni sürətdə prosesləri tələsdirmək də olmaz. Əsas məsələ odur ki, biz tədricən hücum mövqeyindən geri çəkilməyək və yavaş-yavaş insanların köçünü təmin edək. Əsas məsələ kommunikasiyaların bərpasıdır, yolların tikilməsidir, körpülərin salınmasıdır. Yeni salınmış obyektlər, müəssisələr, yaşayış kompleksləri, yollar, körpülər hamısı ən müasir standartlara cavab verir. Bu ondan xəbər verir ki, biz 1, 10 illik deyil, əbədi oraya qayıtmışıq. Bunun üçün intellektual, insan potensialımız var. Çünki burada həm də mühəndis ideyalarına çox böyük meydan verilməlidir”.

”Digər tərəfdən də görürük ki, bəzi ölkələr ki, bizə dostdurlar, onlar da öz bacarıq və imkanlarını əsirgəmirlər. İldən-ilə quruculuq və bərpa işlərində iştirak edən xarici şirkətlərin həm sayı artır, həm də iştirakçı ölkələrin sıraları genişlənir. Bu da çox vacib məsələdir. Biz ermənilərdən fərqli olaraq heç kimdən heç nə xahiş etmirik. Bu qədər problemli vəziyyətin qarşısında öz gücümüz, öz bacarığımız, öz imkanlarımızla bunların hamısını həll edəcəyik. Bu, dost sıralarında da, dünya birliyi qarşısında da böyük əks-səda doğurmuş məqamdır. Faydalılıq əmsalı da gözə çarpacaq dərəcədə özünü büruzə verir. Odur ki, bu işlərin hamısı indi öz qaydası ilə davam edir. Biz bu işləri məntiqi sonluğa çatdıracağıq. İlk növbədə insanların həsrəti var, onlar qayıdışa hazırdırlar. Köç onu göstərir ki, artıq işçi qüvvəsi peyda olur. Onlar da özlərini layiqli tərzdə nümayiş etdirirlər. Bu, insanların çoxdankı arzusu idi. Biləndə ki, erməni vandalları Qarabağı yerlə-yeksan ediblər, onlar deyirlər ki, o yerlərin hamısını bərpa edəcəyik. Biz Azərbaycanın sahibləriyik, bu torpaq bizimdir. Həqiqətən də, Qarabağ Azərbaycandır!” - deyə o, əlavə edib.



**Söylü Ağazadə**

# Qərbin ikili standartları- unudulmuş suriyalı miqrantlar



2011-ci ilin mart ayından dünya diqqətini Suriyanı alt-üst edən vətəndaş müharibəsinə yönəldib. Demək olar ki, müharibə başladığı gündən onun neqativ nəticələri ölkə hüdudlarından kənara çıxıb. 2024-cü ildə belə qalıcı həlli olmayan qaçqın böhranı həm dövlət, həm də beynəlxalq səviyyədə vəziyyətin hələ də nə qədər ciddi olduğunu göstərir. Başqa sözlə, müharibə ölkənin sərhədləri daxilində baş versə də, onun təsirləri bütün dünyada hiss edilir. Məsələ burasındadır ki, müharibə başlayan kimi Suriyanın qonşuları və digər supergüclər öz maraqlarını güdərək müdaxiləçi davrandı və daxili parçalanmanı əhəmiyyətli dərəcədə artırdı. Beləliklə vətəndaş müharibəsi zəncirvari reaksiyaya səbəb oldu və beynəlxalq tərəflərin iştirakı ilə mürəkkəb situasiyaya çevrildi.

Suriyada böhran başlayandan bəri üç milyondan çox suriyalı; Türkiyə, Livan, İordaniya, İraq kimi qonşu ölkələrə sığınıb. Bu prosesdə əksəriyyəti qonşu ölkələr olmaqla digər ölkələrə daxil olan miqrantlara “Müvəqqəti Qoruma Statusu” verilib. Müvəqqəti qoruma; müharibə dövründə ölkəsini tərk etməyə məcbur olmuş, tərk etdiyi ölkəyə qayıda bilməyən və sərhədləri keçən əcnəbilərə təcili və təxirəsalınmaz yardım məqsədi ilə təmin edilən statusa deyilir. Belə ki, BMT tərəfindən ortaya atılan və milyonlarla suriyalını əhatə edən Müvəqqəti Qorunma statusu günümüzdə bir çox sual doğurur. Məsələ burasındadır ki, Suriyada vətəndaş müharibəsinin başlanmasından bəri miqrantlarla bağlı planlar qısa-perspektivli düşünülüb. BMT və miqrant məsələsindən ən çox əziyyət çəkən Türkiyə daxil olmaqla əksər qurum halhazırda miqrantlarla nə edəcəyindən əmin deyil.

Digər tərəfdən qaçqın böhranı regional sabitliyə ciddi təhlükə yaradır. Uzun illərdir ki, suriyalı miqrantların intensiv şəkildə sığındığı Türkiyə, Livan və İordaniya kimi qonşu ölkələr bu böyük insan axınının yaratdığı iqtisadi, sosial və siyasi təzyiqlərlə üzləşirlər. Beləliklə ölkələrin infrastrukturlarına düşən ağır yüklər yerli əhali ilə qaçqınlar arasında gərginliyin artmasına və regional qeyri-sabitliyin dərinləşməsinə də səbəb olur. Eyni zamanda miqrantların törətdiyi qanunsuzluqlarla birgə onların məruz qaldıqları zorakılıq, insan alveri kimi hallar günümüzdə də ölkələr üçün əsas təhlükəsizlik məsələsidir.

Günümüzdə beynəlxalq ictimaiyyətin Suriyadakı miqrant böhranı ilə bağlı davamlı həll yolu tapmaq səyləri daha da çətinləşib. Supergüclər arasında rəqabət, regional münaqişələr və maraqların toqquşması Suriyadakı böhranın həlli üçün beynəlxalq səylərə mane olur. Bu vəziyyət miqrant böhranının həllinə nail olmağı daha da çətinləşdirir. Onu da qeyd edək ki, Suriyadan başlayan qaçqın böhranı sadəcə olaraq bir ölkənin daxili problemi deyil, regional və qlobal təsirləri olan mürəkkəb problemdir. Ona görə də beynəlxalq ictimaiyyət böhranın kökünə varmaq və bütün tərəflərlə əməkdaşlıqda qalıcı həll yolu tapmaq üçün səylərini artırmalıdır. Lakin görünən odur ki, beynəlxalq ictimaiyyətin bu böhrana yanaşması böhranın ölçüləri ilə mütənasib deyil. Bir çox beynəlxalq aktorlar Suriyadakı qaçqın böhranını öz prioritetləri sırasına aid etmir və digər problemlərlə məşğuldurlar. Belə bir vəziyyətdə beynəlxalq ictimaiyyətin qaçqın böhranına qarşı qeyri-həssaslığı tənqid edilməlidir. Belə ki, miqrant böhranı ilə bağlı daha effektiv yanaşma tətbiq edilməli və bu, böhranın əsas səbəblərini anlamaq, miqrantlara kömək etmək və münaqişənin həlli üçün beynəlxalq əməkdaşlığı gücləndirmək lazımdır. Bundan əlavə, beynəlxalq ictimaiyyət başqa krizlərlə yanaşı miqrant böhranını da əsas prioritet kimi qəbul etməli və böhranın həlli üçün bütün tərəflərlə əməkdaşlıq etməlidir. Əsas olan isə qərbin ustalıqla yönləndirdiyi beynəlxalq ictimaiyyətin ikili standartlardan uzaqlaşıb miqrantların dərisinin rənginə önəm verməməlidir.

**Zərdüşt Quluzadə**

# “Rusiya Xankəndidə baş konsulluq açmaqla Qarabağın Azərbaycan olduğunu göstərir”

## *“Rusiyanın Ermənistandan “boşanması” prosesi ardıcıl və böyük ölçüdə geridönməzdir”*





Rusiya Beynəlxalq Əlaqələr Şurasının eksperti Aleksey Naumov “Moskva-Baku” portalına müsahibəsində Ermənistandakı vəziyyəti şərh edib. Politoloqun müsahibəsini oxucularımıza təqdim edirik.

**- Ermənistanda baş verənlər- müxalifət hərəkatının yenilənmiş variantının davam edən etiraz siyasəti nələri nəzərdə tutur və müxalifətin ənənəvi olaraq qarşıya qoyduğu məqsəd- ölkədə hakimiyyət dəyişikliyi ilə bağlı proqnozlar necədir?**

- Güman etmirəm ki, hakimiyyət dəyişikliyi olacaq. Fakt budur ki, müxalifət mürtəce davranır. O, gündəmini təklif etmir. O, mahiyyətcə sülh prosesini dayandırmağı, bu prosesi geri qaytarmağı təklif edir və bu, həqiqətən işləmək şansı olan bir plan deyil. Düşünürəm ki, Ermənistan cəmiyyəti bunu başa düşür. Bəli, bədəni ilə müxalifəti dəstəkləyir, çünki müxalifət qulağa sakitləşdirici sözlər deyir: biz ərazilərdən əl çəkməyəcəyik, onların yanında, ölənə kimi möhkəm dayanacağıq. Amma bu cəmiyyət başı ilə başa düşür ki, bu mümkün deyil. Ona görə də məncə, müxalifət hərəkatının böyük perspektivi yoxdur. Yaxşı, Paşinyanı devirdilər, bundan sonra nə olacaq? Bu suala cavab vermirlər.

**- Sizcə, müxalifətin hazırkı versiyasının arxasında kim dayanır?**

- Siyasi proseslər hərəkatın arxasında kiminsə dayanması, kiminsə maliyyələşdirməsi və buna görə də onun “rəhbərliyi” altında kiminsə küçələrə axışmasından qat-qat mürəkkəb və çoxfaktorludur. Ermənistanda bəzi tendensiyalara baxmayaraq, açıq daxili siyasi sistem mövcuddur. Etiraz hərəkatının arxasında isə böyük ölçüdə erməni cəmiyyəti dayanır. Qarabağla bağlı şüarlar isə istənilən populist hərəkat üçün kifayət qədər ənənəvi görünür: kimsə insanlara istədiklərini vəd edəndə və eşitmək istədiklərini söyləyəndə. Əgər onlar milli əzəmət, maraqların müdafiəsi, “Qarabağ layihəsi”nin müdafiəsi haqqında eşitmək istəyirlərsə- indi Ermənistanda bunu görürük, buna daxili siyasi qışqırıq deyirlər. Əsasən demokratik ölkələr üçün bu, tamamilə ənənəvi hekayədir. Ona görə də mən cənab Qalstanyanı dəstəkləyə biləcək hər hansı qüvvələrin əhəmiyyətini şişirtməzdim. Əgər həqiqətən də kimsə cənab Qalstanyanın arxasında dayanıb onu Ermənistanda hakimiyyəti ələ keçirməyə, Ermənistan üzərində nəzarəti ələ almağa yönəltsəydi, o zaman yaxşı yol xəritəsi hazırlamış olardı. “Sifarişçi” üçün cənab Qalstanyan müəyyən siyasi məqsədə çatmaq üçün istifadə olunacaq bir aktiv olardı. Amma biz bunu görmürük.

Eyni zamanda, biz görürük ki, arxiyepiskop artıq Azərbaycana necə kifayət qədər bayağı bəyanatlarla müraciət edir: deyirlər, onda bizim istədiyimizi edəcəksən. Ən son işiniz Azərbaycan rəhbərliyini hədələməkdir. Əslində bu heç bir çərçivəyə sığmır. Bu, nəinki etik cəhətdən qəbuledilməzdir, sadəcə olaraq, Ermənistandakı istənilən siyasi




hərəkat üçün faydasız və zərərlidir. Aydındır ki, bu gün istənilən adekvat erməni müxalifəti yalnız Azərbaycan, Rusiya və Türkiyə ilə ağıllı, sağlam münasibətlər ideyalarına köklənməlidir. Azərbaycana müdaxilə etməyə cəhdlər ediləndə isə onların ümidsizlikdən qaynaqlandığı aydın olur. Bu, “xalq qəzəb klubu”ndan istifadə etmək cəhdidir. İndi Qarabağı geri alıb yaşayacağıq. Aydındır ki, bu, emosional “reaksiyadan” başqa bir şey deyil.

Ermənistan heç nə əldə edə bilməyəcək və Azərbaycandan əraziləri geri ala bilməyəcək. Bu məsələ bağlanıb- bu qədər.

**- Müxalifətin təxribatı fonunda Ermənistan hakimiyyətinin reaksiyasını və taktikasını necə qiymətləndirirsiniz?**

- Ermənistan hakimiyyətinə gəlincə, cənab Paşinyan kifayət qədər savadlı siyasət aparır. Onu kəndirdə gəzən adamla müqayisə etmək olar. O, iplə uçurumun üstündə gəzir və revanşist dairələrə düşə bilər ki, bu da onun və Ermənistanın məğlubiyyətinə səbəb olacaq. Və o, milli xəyanət ittihamlarının uçurumuna düşə bilər.

Fikrimcə, o, Azərbaycanla barışıq və kompromisə getməli, digər tərəfdən balanslı şəkildə getməlidir. Çox yavaş getsə, revanşizmə düşmə riski var. Çox sürətlə getsə, devrilmə riski var. Çünki insanlar milli rəzalətlə mübarizə şüarı altında bir çox məntiqsiz, ağılsız və radikal işlər görəcəklər.

**- Vaxtilə Paşinyan dövlət orqanlarını əvvəlki hakimiyyətin əlaltılarından təmizləmişdi. Konstitusiya Məhkəməsi ilə səs-küylü əhvalat oldu. Hərbi üsyanı yatırmaq mümkün idi. Amma indi anladıq ki, təxribat kilsədən çıxıb...**

- Biz başa düşürük ki, orta əsrlərin əhəmiyyətli bir hissəsi hökmdarların suverenlik ideyasından kilsə hakimiyyətini dünyəvi hakimiyyətlərə tabe etmək üçün istifadə etdiyi zaman kilsənin muxtariyyətinə qarşı mübarizəyə həsr edilmişdir. Tomas Hobbsu xatırlayaq. Və onun ”Leviafan”ında bir hökmdar kilsənin və dünyəvilərin hakimiyyəti üzərində təsvir edilmişdir: bir əlində qılınc, digərində isə əsa var.

Təbii ki, Nikol Paşinyan mahir siyasətçidir, bacarıqlı siyasətçidir. Və o, kilsəni mənfi tərəfdən göstərmək üçün müxalifət çıxışlarından istifadə edəcək. O deyir: “Bax, kilsə dünyəvi cəmiyyətdə özünəməxsus vəzifəsiruhun fərdi və ya kollektiv xilası ilə məşğul olmaq əvəzinə, siyasi fəaliyyətlə məşğul olur. Üstəlik, ölkəni iflasa və milli fəlakətin astanasına qoyan bu cür siyasi fəaliyyətlə. Belə bəyanatların səsləndirilməsi ilə təbii ki, kilsənin nüfuzu azalacaq. Müasir dövrdə kilsədən siyasi fəaliyyət üçün istifadə edilmir. Bizim dövrümüzdə kilsə siyasi gücə malik olmamalıdır. Paşinyan isə bu faktordan istifadə edərək kilsəyə təzyiq göstərəcək.

**- Paşinyan niyə siyasi cəhətdən bu qədər sabitdir?**

- Ermənistan hakimiyyəti, cənab Paşinyan Azərbaycanla sülhə doğru gedir. Paşinyan hakimiyyətdə olduğu dönəmdə




“manjet” almış azsaylı erməni siyasətçilərindən biridir və başa düşür ki, Azərbaycana qarşı bundan sonra da müqavimət, revanşizm yaxşı heç nəyə gətirib çıxarmayacaq.

İşğal olunmuş kəndlərdən əl çəkmirsənsə, Azərbaycana qarşı təxribat xarakterli bəyanatlar verirsənsə, sonra bunun nəticələri ilə məşğul olmalısan. Öz ifadələrin və hərəkətlərin üçün məsuliyyət daşıyırsan. Ona görə də bəli, bir tərəfdən Nikol Paşinyan sülh müqaviləsinə doğru irəliləyir. Digər tərəfdən o, Rusiyadan asılılıqdan qurtulur, çünki belə hesab edir edir ki, Qərblə əlaqələrin gücləndirilməsi onun gücünü artırmağa və Ermənistanı qorumağa kömək edəcək. Görür ki, Rusiya Azərbaycana yaxınlaşır, görür ki, Gürcüstan müstəqil siyasi kurs aparır. Bunun fonunda o, Ermənistanın Qərb düşərgəsində möhkəmlənə biləcəyini görür. Sual olunur: bu yaxınlaşma nəyə gətirib çıxaracaq? Aydındır ki, Qərb Ermənistana lazım olan hər şeyi verməyəcək. Biz xatırlayırıq ki, Gürcüstan necə ən qərbyönlü kurs tutmağa çalışıb və bunun sonu nə ilə nəticələnib. Ona görə də Ermənistan üçün indiki siyasi kurs bir-biri ilə əlaqəli iki prosesdir: barışıq prosesi və Rusiya ilə əlaqələrdən uzaqlaşma prosesi. Amma Ermənistan iqtisadiyyatının Rusiya iqtisadiyyatına nə qədər bağlı olduğunu nəzərə alsaq, hesab edirəm ki, Ermənistanın Rusiya Federasiyasından çox uzaqlaşması onun dağılmasına gətirib çıxaracaq.

Paşinyan səriştəli, bacarıqlı siyasətçi olduğu üçün stabildir. O hakimiyyətə onu sözün əsl mənasında ələ keçirməklə gəldi. O, Azərbaycanla müharibədə və toqquşmalarda uduzduqdan sonra da vəzifəsini saxlayıb. Eyni zamanda parlament seçkilərində də qalib gəlib. Və o, müxalifətə qarşı necə mübarizə aparacağını bilirdi və indi də mübarizə aparır, hakimiyyəti özünə sadiq olmayan ünsürlərdən təmizləyir və Azərbaycana qarşı adekvat kursun yeganə nümayəndəsidir. Çünki qalanları daha da pisdir. Nikol Paşinyan stabildir. Burada böyük bir sirr yoxdur.

**- Sizcə, Rusiyanın Ermənistandakı səfirinin geri çağrılmasının səbəbi nədir və bunun sonu necə olacaq? Və niyə Moskva vəziyyəti başqa cür şərh etmir? Moskva hansı taktikanı seçəcək?**

- Səfirin geri çağırılması Rusiyanın Ermənistandan “boşanmasının” əlamətidir. Nə bunda, nə də Moskvadan bununla bağlı şərhlərin olmamasında təəccüblü heç nə yoxdur. Moskva ənənəvi olaraq diplomatik danışıqları bağlı qapılar arxasında aparmağa və Rusiya Xarici İşlər Nazirliyinin meqafon diplomatiyası adlandırdığı şeylə məşğul olmamağa üstünlük verir. Düşünürəm ki, Rusiyanın Ermənistandan “boşanması” prosesi ardıcıl və böyük ölçüdə geridönməzdir. Bunun necə yavaş-yavaş baş verdiyini, əlaqələrin necə qırıldığını, bəyanatların necə verildiyini, müəyyən qarşıdurma anlarının eşidildiyini görürük. Moskva ənənəvi olaraq bu barədə kəskin şərh verməyəcək. Hər şey aydın olduğu halda niyə şərh versin?

**- Ermənistanda, Gürcüstanda etiraz aksiyaları davan edir. Niyə Qərbin təzyiqi altında belə Azərbaycan həmişə sabitlik adası olaraq qalır?**

- Təbii ki, Azərbaycanda sabit daxili siyasi sistem var, Azərbaycanın möhkəm iqtisadi bazası var. Və prinsipcə, Azərbaycan sabitlik adası olaraq qalacaq.

Regionda gedən siyasi proseslərdən Azərbaycanın ancaq qazanc əldə etdiyini görürük. Biz görürük ki, Azərbaycan öz qazını Avropa İttifaqı bazarına çıxardığı kimi, Rusiya da Azərbaycana yaxınlaşır, Avropa İttifaqına yaxınlaşır. Azərbaycan Avropa bazarında əhəmiyyətini artırır.

**- Rusiyanın Xankəndidə baş konsulluğunu açmasını necə şərh edərdiniz?**

- Xankəndidəki Baş Konsulluqla bağlı. Birincisi, Rusiya tərəfindən belə bir addım diplomatik balanssızlığı əvəz etməkdir. Rusiyanın Azərbaycanda baş konsulluğu yoxdur. Aydındır ki, bu, daha çox siyasi məsələdir. Rusiya Azərbaycanın Xankəndi şəhərində baş konsulluq açır və bununla da Qarabağ məsələsinə son qoyur. Düşünürəm ki, bu baxımdan Qərb dövlətlərinin xeyli hissəsi oxşar addımlardan qaçacaq: deyirlər, biz diplomatik nümayəndəliklər açmırıq. Bu o qədər də sadə deyil. Amma Rusiya buna son qoyur və Azərbaycan hakimiyyəti üçün bu kifayət qədər anlayışlı və qismən əlverişlidir.

Azərbaycan baxımından Xankəndi ilə Azərbaycanın hər hansı bir şəhəri arasında heç bir fərq olmadığını göstərmək vacibdir. Xankəndidə də baş konsulluq aça bilərsiniz, Gəncədə də. Hesab edirəm ki, Rusiyanın Qarabağ məsələsinə son qoyması çox vacibdir. Və konsulluq açıb Qarabağın Azərbaycan olduğunu göstərir.

***Tərcümə - Elçin Bayramlı***

# Xalqımızı Qurtuluşa aparan BÖYÜK AZƏRBAYCANLI




***Müasir Azərbaycanın otuz ildən artıq müddətdə dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir epoxası Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Xalqın qürur və iftixar mənbəyi olan dünyaşöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev yorulmaz fəaliyyəti, qətiyyəti, siyasi bacarığı, Azərbaycana böyük sevgisi ilə ölkənin uğurlu gələcəyinin təməlini qoydu. Beynəlxalq miqyasda etibarlı tərəfdaş, demokratik ölkə kimi tanınan müstəqil Azərbaycanın keçdiyi uğurlu inkişaf yolu Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir.***



Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması, məhz Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətindən qaynaqlanıb. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz Müdrik Liderinə güvənməsi və geniş xalq məhəbbəti vəhdətdə birləşdiyindən, Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Ölkə 1991-93-cü illərdə demək olar ki, total böhran yaşayırdı. İqtisadi, siyasi, hərbi böhran Azərbaycanı çox ağır vəziyyətə salmışdı və daxili çəkişmələr, özbaşınalıq, anarxiya və xaos demək olar ki, Azərbaycanın gələcəyini də şübhə altına qoyurdu. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonra vəziyyət sabitləşməyə başladı, bütün xoşagəlməz halların qarşısı alındı və Azərbaycan uğurlu inkişaf yoluna qədəm qoydu".

Əlbəttə ki, bu gün müstəqil dövlətimizin uğurlarından qürurla söz açarkən, bu nailiyyətlərin təməlinin qoyulduğu zamanın - Azərbaycan tarixinin silinməz salnaməsi olduğunu qeyd etməliyik. Tarixin silinməz zamanına çevrilən həmin məqamlar müstəqil dövlətimizi təhlükələrdən xilas etdi və bugünki dünyada nüfuz qazanmış müstəqil Azərbaycanın adını zirvələrə yüksəltdi. Xalqımızı nicata aparan yol - 1993-cü ilin 9 iyun tarixində başlanmışdır. Həmin tarixdən 31 illik bir zaman ötür. Həmin gün Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdı. Məlumdur ki, 1990-cı ilin Qanlı 20 Yanvar hadisələrindən sonra Ulu Öndər Heydər Əliyevin Moskvadan Azərbaycana qayıtması, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilməsi, artıq bu mübarizə alovunu gücləndirdi və Müdrik Siyasətçinin uzaqgörən siyasəti xalqın buxovlanmış arzularının yolunda ümid çırağı yandırmış oldu.

## VƏTƏNİN XİLASI VƏ XALQIN QURTULUŞU

Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında Muxtar Respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin Sessiyasında tarixi sənəd qəbul edildi. Amma Azərbaycan müstəqillik əldə etmiş olsa da, ölkədə hökm sürən ictimai-siyasi proseslər ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünki əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı. Sonrakı hadisələrin gedişində ölkədə nisbətən sabitlik yarandı və oktyabrın 3-də Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi.

## "AZƏRBAYCAN XALQI AZADLIĞINI ƏLDƏ ETMİŞ XALQ KİMİ YAŞAYACAQ, ÖZ MÜSTƏQİL DÖVLƏTİNİ QORUYACAQ"

1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz",- deyirdi Heydər Əliyev. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qorunması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi: "Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. "Əsrin Müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Azərbaycanın "Əsrin Müqaviləsi"ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

"Əsrin Müqaviləsi"nin tərəfdaşı olan ölkələrin, demək olar ki, hər biri dünyada böyük nüfuza və gücə malik ölkə idi. Həmin dövr üçün bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilməsi təhlükəsizliyimizin təminatına səbəb olan amillərdəndir. Bu müqavilə Azərbaycanın dövlət təhlükəsizliyinin təminatçısına çevrildi. Nəinki regionda, qlobal miqyasda nəhəng neft kəməri olan Bakı-Tbilisi-Ceyhanın əsası qoyuldu. "Əsrin Müqaviləsi" sayəsində Azərbaycana birbaşa investisiyalar qoyuldu və ölkəmiz dünya bazarında iqtisadi müttəfiq kimi tanındı. Bununla yanaşı, Azərbaycan beynəlxalq hüquq müstəvisində iqtisadi maraqlarını və iqtisadi hüquqlarını qorumağa başladı. Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı.



## AZƏRBAYCANIN ƏLDƏ ETDİYİ TARİXİ GERÇƏKLİKLƏR

1993-cü ildən başlayaraq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər müstəqil Azərbaycanın suveren dövlət kimi mövcud olması, tarixi zərurətdən irəli gələn hadisə idisə, Azərbaycanın müstəqilliyi əbədiliyi və dönməzliyi Ümummilli Lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır. Böyük Qayıdışın möhtəşəm nəticələri təkcə Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi, ölkəmizin parçalanmasının qarşısının alınması və vətəndaş müharibəsinin dayandırılması ilə ifadə edilmir. Bu gün Azərbaycan regionun, Avropanın və ümumilikdə, dünya ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsində xüsusi əhəmiyyət kəsb edən bir ölkəyə çevrilmişdir.

Beynəlxalq təşkilatlar regiondakı bütün layihələrdə Bakının mövqeyini nəzərə alırlar. Ölkəmiz sosial-iqtisadi inkişafın tempinə görə dünya dövlətləri arasında liderlər sırasındadır. Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələr məkanında nəzərəçarpan dönüş yarandı. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycanın uğurlu inkişafı təmin edilib və qarşıda duran bütün əsas vəzifələr uğurla icra edilib. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Ötən dövr aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində, ölkə iqtisadiyyatının mühüm sahəsi olan qeyri-neft sektorunun inkişafında, eləcə də, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayan kənd təsərrüfatının dinamik və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində davamlı işlər görülür. Neft kapitalının insan kapitalına çevrilməsi strategiyasına uyğun olaraq, humanitar sahələrin inkişafı istiqamətində gərgin iş aparılıb. Təhsil sisteminin daha da təkmilləşdirilməsinə dair tədbirlər həyata keçirilib, dünyanın mötəbər universitetlərində minlərlə Azərbaycan gəncinin təhsil alması üzrə Dövlət Proqramı gerçəkləşdirilib, yeni universitetlər açılıb, təhsildə özəl sektor formalaşıb. Bütün bu və ya digər amillər müstəqillik dövründə Azərbaycanın əldə etdiyi nailiyyətlər - tarixi gerçəkliklərdir. Müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər gerçəkləşib. Həyata keçirilən çoxtərəfli və balanslaşdırılmış xarici siyasət nəticəsində, Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

## ATA VƏSİYYƏTİNİ YERİNƏ YETİRƏN PREZİDENT

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndər Heydər Əliyev belə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun". Bütün ömrünü doğma Vətəninə və xalqına həsr edən Udu Öndər "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", - deyirdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. 30 illik işğala hərbi-siyasi yolla son qoyuldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğulların şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu – Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Azərbaycan Prezidenti İlham Əliyev xalqa məlum tarixi müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" – deyə bildirmişdi. Xalq - iqtidar birliyi Azərbaycanı Zəfərə, Qələbəyə apardı. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. 30 ilə yaxın bir zamanda xarabazara çevrilmiş torpaqlarımız yenidən canlanır. Azərbaycanın bugünkü və gələcək nəsillərinin Ulu Öndər Heydər Əliyevin şərəfli adı, ölməz ruhu qarşısında müqəddəs borcu Onun şah əsəri olan müstəqil Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq və milli birliyimizə sədaqətlə xidmət göstərməkdir.




Bəli, Ulu Öndər Heydər Əliyevin böyüklüyü Onun sözü ilə əməlinin birliyində idi. Ulu Öndər hər zaman çalışırdı ki, insanların istəklərini, arzularını reallaşdırsın.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Heydər Əliyev böyük azərbaycanlıdır, böyük tarixi şəxsiyyətdir, müstəqil Azərbaycanın qurucusudur. O, öz ömrünü Azərbaycan xalqına həsr etmişdir və bütün dövrlərdə Azərbaycana sədaqətlə xidmət edirdi". Onun hər addımı ölkəmizin inkişaf tarixinə biri-birindən əhəmiyyətli uğur səhifələrini yazıb.

***Zümrüd BAYRAMOVA***

# Soyuq su XƏSTƏLƏNDİRMİR?!

ARAŞDIRMA

***Xüsusilə yay aylarında soyuq su istehlakına daha çox üstünlük verildiyi hər kəsə məlumdur. Yəni, bir çox insanın yay istisində soyuducuda su saxlayıb içmək kimi bir vərdişi var. Soyuq su içməyin faydaları və zərərləri haqqında da bəzi məlumatlar mövcuddur. Bəs, bu fayda və zərərlər hansılardır?***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Bir sıra mənbələrə görə, soyuq su boğaz şişməsi və infeksiyaya səbəb olmur. Çünki boğazda infeksiyaya səbəb olan şey bakteriyalardır.

### Dünyada yanaşma

Bir türk mütəxəssis türklərdə nədənsə soyuq suya qarşı sanki bir allergiya olduğunu bildirir. Onun sözlərinə görə, Amerikada boğazı şişən adama dondurma verilir və soyuq su içirirlər. Düzdür, soyuq su ilə duş qəbul etmək, soyuq su içmək kimi dəriyə müəyyən faydalar verir. Soyuq suyun zərərləri dedikdə ilk ağla gələn soyuq suyun istehlak edilməsinin insanın enerjisini azaltmasıdır. İnsanların sağlam həyat sürməsi üçün bədənlərinə hər gün müəyyən miqdarda su daxil olmalıdır. Bu səbəbdən gündə orta hesabla iki və ya iki yarım litr su istehlak edilməlidir.





### Fərqli mənbə

Soyuq suyun faydaları və zərərləri bu nöqtədə böyük əhəmiyyət kəsb edir. Soyuq su istehlakının immunitet sistemini də zədələdiyinə dair bəzi məlumatlar var. Bu məlumatları nəzərə alaraq, soyuq su istehlakını minimuma endirmək lazımdır.

### Soyuq su qaraciyərə zərər verirmi?

Soyuq suyun qaraciyərə zərərli olub-olmadığı barədə dəqiq məlumat yoxdur. Ancaq soyuq su içmək qaraciyərin yağlanması riskini artıra bilər. Soyuq istehlak edilən su mədəni doldurur və isti olduğu bilinən ödün əmələ gəlməsinə səbəb olur.

Öd soyumağa başlayanda qaraciyərdə yağlı çöküntülər əmələ gəlməyə başlayır. Bunun xaricində soyuq suyun qaraciyərə zərərli olub-olmadığı barədə qəti məlumat vermək düzgün deyil. Soyuq suyun zərərləri müxtəlif orqanlarda da görünə bilər. Bu riski azaltmaq üçün daha çox isti su və ya otaq temperaturunda su istehlak edilməlidir. Beləliklə, soyuq suyun zərərləri daha az müşahidə edilir.

### Soyuq su içməyin faydaları nələrdir?

Soyuq su içməyin müəyyən zərərləri ilə yanaşı faydaları da məlumdur. Bu faydalardan ən əhəmiyyətlisi maddələr mübadiləsi sürətinin artmasıdır. Metabolik sürətin artmağa başlamasının səbəbi əslində bədənin içəriyə girən soyuq suyu qızdırmağa çalışmasıdır. Beləliklə, maddələr mübadiləsi işləyir və sürətlənir.

Soyuq su içməyin digər məlum faydaları aşağıdakılardır:

- Məşqdən sonra soyuq su içmək əzələləri rahatladır.
- Bədən istiliyini aşağı salır
- İnsanı təravətləndirir



### Soyuq su içməyin zərərləri nələrdir?

Soyuq su istehlakının insanların sağlamlığına bəzi mənfi təsirləri var. Bu mənfi təsirlərə soyuq suyun baş ağrılarını artırma ehtimalı daxildir.

Bundan əlavə, soyuq suyun zərərli təsirləri arasında aşağıdakılar var:

- Xoralar. Mədə problemi olan insanlar üçün soyuq su istehlak etmək mədə problemlərinin daha da pisləşməsinə səbəb ola bilər.
- Soyuq su istehlakı diş və diş ətinin həssaslığına səbəb ola bilər.
- İnsanın ürək döyüntüsünün azalmasına səbəb olur
- Bədəndəki vagus sinirləri stimullaşdırılır
- Soyuq su istehlakı orqanizmdə bəlğəmin miqdarını artırır ki, bu da kifayət qədər zərərlidir.
- Qarın ağrısına səbəb olur
- Qəbizlik problemi yaranır
- Mədə ağrısı ehtimalı da var

### Hamiləlik zamanı soyuq su içmək zərərlidirmi?

Hamiləlik dövründə soyuq su içmək insan orqanizmində əlavə sağlamlıq problemi yaratmır. Hamiləlik dövründə soyuq su içməyin zərərləri ilə adi vaxtda soyuq su içməyin zərərləri arasında heç bir fərq yoxdur. Hamilə olmayan şəxslər və hamiləlik dövründə fərdlər soyuq su istehlak etdikdə eyni fayda və zərərləri yaşayırlar.

Soyuq su gündəlik həyatda da istehlak edilə bilər. Hamilə və ya hamilə olmayan insanlar da gün ərzində soyuq su istehlak etməlidirlər, lakin çox miqdarda deyil. Soyuq suyun zərərləri yalnız həddindən artıq istehlakdan qaynaqlanır.

### Soyuq suyun saça fayda və zərərləri nələrdir?

Soyuq suyun faydaları və zərərləri təkcə içməli su deyil. Soyuq su ilə duş qəbul etməyin bəzi məlum faydaları da var. Məlumdur ki, saçları soyuq su ilə yumaq xüsusilə saç dərisi üçün çox faydalıdır. Baş dərisində kəpək problemi olan insanlar saçlarını soyuq su ilə yaxalamalıdırlar. Bu, kəpək problemini böyük ölçüdə aradan qaldırır. Eyni zamanda soyuq su ilə yuyulan saçlar daha canlı görünüş qazanır. Saçlar soyuq su ilə yuyulduqda baş dərisindəki təbii yağ balansı qorunur.

Duş zamanı istifadə edilən soyuq su baş dərisini nəmləndirməyə kömək edir. Saçlarınızı mütəmadi olaraq soyuq su ilə yusanız, daha parlaq və yumşaq saçlara sahib ola bilərsiniz. Soyuq su baş dərisində qan dövranı üçün də çox faydalıdır. Saçları soyuq su ilə yumağın başqa bir faydası saç tökülməsini azaltmaqda olan təsiridir. Saçları soyuq su ilə yumaq çox da zərər vermir. Ümumiyyətlə, duşdan sonra saçları yaş saxlamaq insana zərərlidir. Bunun xaricində saçınızı soyuq su ilə yumaqdan sizə zərər verməz.

### Soyuq suyun dəriyə faydaları nələrdir?

Dəriyə qulluq zamanı və gün ərzində üzü soyuq su ilə yumağın bir çox faydası var. Soyuq su ilə duş qəbul etmək də çox faydalıdır. Belə ki, bu duş qəbul etmək orqanizmdə qan dövranına müsbət təsir edir. İmmunitet sisteminin güclənməsinə də töhfə verir.

Soyuq suyun dəriyə müəyyən zərərləri də var. Bu zərərlər arasında birincisi üzdəki kir və bakteriyaları tam təmizləyə bilməməkdir. Bundan əlavə, qış aylarında soyuq su ilə duş qəbul etmək soyuqlamağınıza səbəb ola bilər.



### Dəriyə faydaları:

- Üzünüzü soyuq su ilə yumaq sızanaqların əmələ gəlməsinin qarşısını alır.
- Soyuq su dəridəki şişkinliyi aradan qaldırmaq üçün faydalıdır.
- Üzün mütəmadi olaraq soyuq su ilə yuyulması üzə parlaq bir görünüş verir.
- Göz altındakı şişkinlik və yuxulu görünüşü aradan qaldırmaq üçün də soyuq sudan istifadə edilir.
- Üzündə iltihab olan insanlara da üzünü soyuq su ilə yumaq tövsiyə olunur.
- Soyuq su üzdəki qan damarlarının daralmasına səbəb olur

### Soyuq su içmək qripə səbəb olur?

Araşdırmalar göstərir ki, indiki vaxtda soyuq su içməyin sizi xəstələndirəcəyi ilə bağlı fikirlər olduqca çox yayılıb. Amma bu məlumat doğru deyil. Soyuq su içmək bəzi orqanlara zərər verə bilsə də, heç bir qrip xəstəliyinə səbəb olmur. Boğaz ağrısı və ya soyuqdəymə zamanı soyuq su istehlak edilməməlidir. Bunun səbəbi isə insanın boğazında olan qıcıqlanmadır. İnsanın boğazı qıcıqlandıqda soyuq su içmək boğaz ağrısına səbəb olur. Sağlam bir insan üçün soyuq su istehlak etmək soyuqdəyməyə və ya boğaz ağrısına səbəb olmaz.

***Ayşən Vəli***

RAKURS

# Ukrayna-Rusiya cəbhəsində nə baş verir?

## *Kiyev Rusiyaya qarşı hücumlar üçün Qərbdən silah istəyir, amma...*

***Qərb müttəfiqlərindən Rusiya ərazisinə zərbələr endirmək üçün icazə aldıqdan sonra ukraynalı analitiklər prioritet hədəflər barədə mübahisə etməyə başlayıblar. Bəziləri Rusiya ordusunun aviasiyasına zərbə endirməyə çağırıb, bəziləri isə onun müvafiq obyektləri təhlükəsiz məsafəyə köçürməsi ehtimalını istisna etməyib. Kiyev və Vaşinqtonun nümayəndələri "şok" icazəsinin əhatə dairəsinin daha da genişləndirilməsinin mümkünlüyünü etiraf ediblər. Ekspertlər qeyd edirlər ki, indi Moskva öz qüvvələrini dağıtmaq və onların müdafiəsinin effektivliyini artırmaq üçün sübut edilmiş tədbirlərlə yanaşı, yeni cavab tədbirləri görməlidir.***



Ukraynalı hərbi ekspert Pyotr Çernik bildirib ki, Ukrayna Silahlı Qüvvələrinin Rusiya sərhədi ərazisində əsas hədəfi aviasiyadır. "Ən böyük və ən zəruri hədəf ordu aviasiyası olaraq qalır, çünki bu, çox bezdiricidir. Mi-24, Mi-28, Ka-52 - onlar 80-90 kilometr dərinlikdə yerləşirlər", - Çernik bildirib. Onun müəyyən etdiyi kimi, Ukrayna indi Rusiya ərazisindəki hədəflərə hücum etmək üçün xarici silahlardan istifadə etmək üçün "böyük kampaniyanın başlanğıcındadır".

Bununla bağlı Ukrayna mediası xatırladıb ki, Kiyev nümayəndələri dəfələrlə xarici müttəfiqlərini Ukrayna Silahlı Qüvvələrinə Qərb silahları ilə Rusiyanın dərinliklərinə zərbələr endirməyə icazə verməyə çağırıblar. Bu gün 15-dən çox ölkə, xüsusən də Böyük Britaniya, Fransa, Finlandiya, Litva, Latviya, Estoniya və Polşa bu cür qadağanın aradan qaldırılmasının lehinə çıxış edib. Hollandiyada isə Ukraynaya tədarük edəcəyinə söz verdikləri F-16 təyyarələrindən də Rusiya Federasiyasına hücuma icazə verildiyini bildirdilər. Jurnalistlərin əlavə etdiyi kimi, ABŞ Rusiya ərazisindəki hədəflərə zərbələr endirmək üçün Amerika silahlarının istifadəsinə də icazə verib. Amma Vaşinqtonda dəqiqləşdirildiyi kimi, o, yalnız Xarkov vilayəti yaxınlığında istifadə edilməlidir.

Eyni zamanda, Ukraynanın xarici işlər naziri Dmitri Kuleba Kiyevdə estoniyalı həmkarı Marqus Tsaxna ilə birgə mətbuat konfransında Ukrayna hakimiyyətinə Rusiya Federasiyasındakı hədəflərə qarşı Qərb silahlarından istifadə etmək üçün məhdudiyyətsiz kart-blanş verilmədiyini təsdiqləyib. "Ümumiyyətlə, biz qəbul edilmiş qərarı həqiqətən yüksək qiymətləndiririk və bu silahlardan istifadə üsullarının genişləndirilməsi məsələsində müttəfiqlərimizlə işləməyə davam edəcəyik", - Kuleba əmin edib.





Ukrayna prezidenti Vladimir Zelenski iyunun 2-də ABŞ-dan Ukrayna tərəfinə qarşı istifadə edilən Rusiya silahlarının bütün növlərini zərərsizləşdirmək üçün HIMARS-dan istifadə üçün artan mobillik sistemlərinin icazəsini qeyri-kafi adlandırıb. Maraqlıdır ki, bir gün əvvəl keçirdiyi brifinqdə Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bildirib ki, ABŞ Ukrayna tərəfinə Rusiya ərazisindəki hədəflərə hücumlar üçün silahlardan istifadəsinə icazənin genişləndirilməsi imkanını istisna etmir. Lakin o, təfərrüatları dəqiqləşdirməkdən yayınıb. "Biz vəziyyətin necə inkişaf edəcəyini və ukraynalıların nəyə ehtiyac duyduğunu görəcəyik" deyə Kirbi cavab verib.

Eyni zamanda mətbuatda Ukraynanın ABŞ-ın icazəsindən cəmi bir neçə saat sonra Rusiyada HIMARS-dan istifadə etdiyi barədə məlumatlar yayılıb. Amerika Müharibənin Tədqiqi İnstitutunun (ISW) analitikləri yeni hesabatında bildiriblər ki, iyunun 3-də dərc edilən geolokasiya təsvirləri cəbhə xəttindən təqribən 60 km və Xarkovdan isə 80 km məsafədə iki S-300/400 hava hücumundan müdafiə sisteminin buraxılış qurğusunun məhv edildiyini təsdiqləyib. Sözügedən obyektlər HIMARS-ın əhatə dairəsində idi, lakin Ukrayna Silahlı Qüvvələrinin Belqorod vilayətində zərbələr endirmək üçün istifadə etdiyi digər MLRS sistemlərinin əhatə dairəsindən kənarda idi, analitiklər etiraf ediblər. Onlar daha sonra vurğulasalar da, "Rusiya mənbələri, istifadə olunan sistemdən asılı olmayaraq, Belqorod vilayətində istənilən uğurlu zərbəni HIMARS zərbəsi kimi xarakterizə etməyə davam edəcəklər".

Digər məsələlərlə yanaşı, ötən həftənin sonunda ATACMS və Fırtına Kölgəsi raketlərinin Krımda Rusiya bərələrini vurduğu bildirilir. Üstəlik, bununla bağlı Bild yenidən Krım körpüsünü Ukraynanın yeni zərbələrinin ehtimal olunan hədəfi kimi göstərib. Rusiya Federasiyasındakı ən "yağlı" hədəflərlə bağlı həmkarları arasında qızğın müzakirələr fonunda, ukraynalı hərbi analitik İvan Stupak hələ də Rusiya tərəfinin cavabı qarşısında çaşqın qalmağı zəruri hesab edir. Xüsusilə, Moskva konkret vəziyyətin təhlilinə əsaslanaraq yaxın gələcəkdə öz qüvvələrini daha təhlükəsiz məsafəyə çəkə bilər. O, həmçinin əlavə edib ki, Rusiya ordusu cəbhədə dəyişən reallıqlara tez uyğunlaşır və qoşunlarını tez bir zamanda dağıda və genişləndirə bilir.

**Bu arada...**

"Financial Times" (FT) yazır ki, Avropa İttifaqı (Aİ) anti-Rusiya sanksiyalarını qeyri-müəyyən müddətə uzadacağı təqdirdə, ABŞ Ukraynaya Rusiya Federasiyasının dondurulmuş aktivlərindən əldə edilən gəlirdən istifadə etməklə qaytarılan 50 milyard dollar məbləğində kredit verməyə hazırdır. Təklif iyunun 5-də Aİ-nin maliyyə nazirlərinin görüşündə müzakirə olunacaq.

Kreditin dəqiq şərtləri, o cümlədən onun qaytarılma müddəti, faiz dərəcəsi, birbaşa və ya vasitəçi (məsələn, Dünya Bankı) vasitəsilə veriləcəyi hələ müəyyən edilməyib. Vaşinqton Rusiya Mərkəzi Bankının Aİ-dəki aktivlərinin "Rusiya Ukraynaya dəymiş ziyanı ödəməyə razılaşana qədər" dondurulması şərti ilə kredit verməyi nəzərdən keçirir. Nəzərdən keçirilən başqa bir variant, AB-nin digər G7-yə üzv ölkələrlə birlikdə Ukraynaya ölkələrin öz yurisdiksiyasında dondurulmuş "Rusiya aktivlərindən əldə edilən mənfəətlə dəstəklənən" ikitərəfli kreditlər verməsini nəzərdə tutur. Bu, Aİ-dən bütün üzvlər tərəfindən yekdilliklə razılaşdırılmalı olan ümumi büdcəsindən istifadə etməyi tələb edəcək. Sənəddə deyilir: "Təminatların verilməsi üçün tələb olunan vaxt, hüquqi və əməliyyat məhdudiyyətləri ilə birlikdə bu variantın sürətlə həyata keçirilməsinə kömək etməyəcək".

Qəzetin yazdığına görə, Aİ-nin bəzi ölkələri bu cür zəmanətlərin potensial maliyyə nəticələrindən ehtiyatlanır.Bundan əlavə, istənilən qərarın razılaşdırılması Macarıstanın da təsdiqini tələb edəcək, baş nazir Viktor Orban isə Ukraynanın maliyyələşdirilməsi ilə bağlı məsələləri həll edərkən dəfələrlə veto hüququndan istifadə edib. Belçikanın Euroclear depozitarisi Rusiyanın suveren fondlarının təxminən 204 milyard dollar məbləğində aktivlərini dondurub. G7 ölkələri (Böyük Britaniya, Almaniya, İtaliya, Kanada, ABŞ, Fransa, Yaponiya) Ukraynaya kredit vermə imkanını müzakirə edilər. ABŞ-ın maliyyə naziri Janet Yellen bildirib ki, bu, dondurulmuş Rusiya aktivlərindən əldə edilən gəlir hesabına ödəniləcək. Reuters də bildirib ki, söhbət 50 milyard dollardan gedə bilər.

**Fransa ordusu Ukraynada peyda ola bilər**

Qərb Ukraynaya yardımla bağlı daha bir məhdudiyyəti aradan qaldıracaq. Fransa prezidenti Emmanuel Makronun iyunun 6-da Müttəfiq qoşunların Normandiyaya çıxışını anma mərasimində çıxış edəcəyi gözlənilir. Məlumata görə, orada o, Ukrayna qoşunlarına təlimatçılar göndərmək qərarına gəldiyini elan edəcək. Bəlkə də bu baş verməyəcək. Mətbuat Makronun yalnız Moskvanın reaksiyasını izləmək istədiyi fikrini ifadə edir.

Fransa prezidenti öz həmvətənlərinin Ukraynaya göndərilməsinə icazə verib. Bu barədə ilk məlumat verən Reuters anonim mənbələrə istinadən xəbər verir. İki diplomatın sözlərinə görə, ilk növbədə faktaraşdırıcı missiya gələcək. Bunun ardınca bir neçə yüz fransız təlimatçı göndəriləcək. Onlar minalardan təmizləmə və aviasiya ilə məşğul olacaqlar. Sonuncu, ukraynalıların hələ də Fransa döyüş təyyarələrini, xüsusən də ilin əvvəlində gözlənilən çatdırılması çox müzakirə olunan Mirage 2000D qırıcısını alacağını göstərə bilər.

Fransa tərəfindən bu məsələ ilə bağlı heç bir rəsmi təsdiq yoxdur. Mayın 27-də Ukrayna Silahlı Qüvvələrinin komandanı Aleksandr Sirski videobağlantı vasitəsilə Ukraynanın müdafiə naziri Rustem Umerovla Fransa Silahlı Qüvvələrinin komandanı, müdafiə naziri Sebastyan Lekornu ilə danışıqlar apardıqlarını bildirib. Sonuncu fransız təlimatçılarının həqiqətən də Ukraynaya gələcəyini açıq mətnlə bildirib. Sirski bu qərarı alqışlayıb. "Mən artıq ilk fransalı təlimatçıların təlim mərkəzlərimizə baş çəkməsinə, onların infrastrukturu və kadrları ilə tanış olmasına imkan verəcək sənədləri imzalamışam", - o bildirib.

Fransız jurnalistlər şərh üçün Lekorneyə müraciət etdikdə, onun ofisi fevralın 26-da Parisdə Kiyevə dəstəyin müzakirə edildiyi konfransda Makronun dediyi sözlərə istinad etməklə kifayətlənib. Sonra Fransa prezidenti xarici hərbi təlimatçıların Ukraynaya göndərilməsini mütləq yox, məqbul variantlardan biri adlandırıb. Makron yalnız Normandiyada keçirilən mərasimdə Ukraynaya dəstək haqqında danışacağını təsdiqləyib. O, bunu Almaniyaya son səfəri zamanı Meseberq qəsrində də deyib.

Əgər Makron Ukrayna-Rusiya münaqişəsində qırmızı xətti keçmək qərarına gəlibsə, Fransa prezidentinin bunu elan etmək üçün yeri seçməsi təsadüfi deyil. İkinci Dünya Müharibəsi ilə bağlı yaddaqalan hadisələr arasında Normandiyadakı mərasim Qərbi Avropalılar üçün uzun müddətdir ki, mayın 8-də nasist Almaniyasının təslim olmasına həsr olunmuş hadisələrdən daha mühüm əhəmiyyət kəsb edir. Burada, 6 iyun 1944-cü ildə anti-Hitler koalisiyasının ölkələrindən 150 mindən çox əsgər qitəyə çıxıb. Dünya tarixindəki bu ən böyük eniş əməliyyatı uğurla nəticələnib və nəticədə Fransanın daxili ərazilərinə genişmiqyaslı hücum edilib. Əvvəllər Rusiya da Normandiyada keçirilən mərasimin daimi iştirakçısı olub. Oraya toplaşan dünya liderləri nəinki anım tədbirlərində iştirak ediblər, həm də danışıqlar aparıblar. Xatırladaq ki, məhz 2014-cü il iyunun 6-da Fransa, Almaniya, Rusiya Federasiyası və Ukrayna başçılarının görüşündən sonra "Normand formatı" adlanan bir format yaranmışdı və bu formatda münaqişənin davam edəcəyi güman edilirdi. Donbass sülh yolu ilə həll olunacaq. Təəssüf ki, bu baş vermədi. İndiki mərasimə Rusiya Federasiyasının nümayəndələri dəvət olunmayıb. Lakin Ukrayna prezidenti Vladimir Zelenski dəvət alıb. Onun Normandiyadakı həmsöhbətləri arasında ABŞ prezidenti Cozef Bayden də olacaq.

Azsaylı da olsa əcnəbilər artıq Ukraynada döyüşürlər, ancaq fərdi şəkildə. Qərb ölkələrinin bəzi hökumətləri bunu dəstəkləmir, digərləri (məsələn, Estoniya) əksinə, öz həmvətənlərinin Rusiyaya qarşı hərbi əməliyyatlarda iştirak etməsi ilə lovğalanır. Makronun təlimatçılar göndərmək qərarı o demək olacaq ki, Ukrayna tərəfində əcnəbilərin silahlı münaqişədə birbaşa iştirakı rəsmi şəkildə tanınır. Nəticələr isə...

***V.VƏLİYEV***

# Əli Kərimlinin müavini iş başında yaxalandı

***Dağıdıcı müxalifətin ölkəmizdə gedən bütün siyasi proseslərdən kənarda qalması, onların yanlış siyasət aparmaları ilə bağlıdır. Faktlara istinadən demək olar ki, dağıdıcı müxalifət sivil müxalifət institutu kimi vəzifəsini yerinə yetirməkdən uzaqdır. Bu baxımdan inandırıcı deyil ki, sivil müxalifət institutu kimi cəmiyyətə parlaq ideya təqdim etməyi bacarmayan dağıdıcı müxalif ünsürlər ölkəmizə uğur gətirmək gücünə və imkanına malik deyil.***



Əksinə, görünən ondan ibarətdir ki, bu məxluqlar Azərbaycanın beynəlxalq imicinə ləkə atmağa, uğurlarına kölgə salmağa çalışırlar. Nədən ki, xarici maraqlı dairələr onların qarşısında belə tələblər qoyurlar. Əks halda maliyyə yardımlarından məhrum oluna bilərlər. Necə ki, Müsavat partiyası artıq belə problemlə üzləşib. Yəni, Müsavat partiyası Azərbaycan cəmiyyətində dağıdıcıyönümlü siyasət aparan siyasi partiyalarda olsa da, xarici maraqlı dairələrin etimadını və etibarını itirən partiyalardandır. Çünki üzərinə götürdüyü öhdəliklər və tezisləri icra edə bilməyib. Hətta bu azmış kimi Müsavatın keçmiş başqanı Arif Hacılının imzası ilə partiya vəsiqələrinin satışı həyat keçirilib. Bu da bəzi fondlar tərəfindən heç də yaxşı qarşılanmayıb. Xüsusilə də, Almaniya və Niderland polisinin “Siyasi mühacir” adı ilə çıxış edən bəzi şəxslərin sənədlərinin saxta olmasını aşkarladıqdan sonra Avropanın qaranlıq dairələrinin Müsavat partiyasına olan inamı tamamilə itib. Bu səbəbdən də Müsavat yetkililəri pulsuz-parasız qalıblar. Vəziyyətdən çıxmaq üçün Müsavatın qara bosları Arif Hacılını İsa Qəmbərlə əvəzləsələr də, hələ ki, Avropadakı ağaların könlünü ala bilməyiblər.

### Cəbhəçilərin qrant almaq məsələsində problemləri yoxdur

AXCP isə Müsavatın üzləşdiyi böhrandan uzaqdır. Əli Kərimli bütün resurslarını



ABŞ-ın və Avropanın qaranlıq dairələrinin sifarişlərini yerinə yetirməyə səfərbər etdiyindən cəbhəçilərin qrant almaq məsələsində problemləri yoxdur. AXCP funksionerləri hər ay müxtəlif fondlardan qarantlar alırlar. Müxtəlif təxribatlara cəhdlər etmələri, pozucu xarakterli statuslar paylaşmaları məhz aldıqları qrantların layihəsinə daxil edilən məsələlərlə bağlıdır. Ona görə də, bəzi ərazilər üzrə baş verən siyasi, ictimai təxribatlarda Əli Kərimlinin rəhbərlik etdiyi trolların əli olduğu üzə çıxır. İfşa edildikdə, hansısa hüquqi tədbir görüldükdə isə hay-küy qaldırılır, sosial şəbəkələrdə dezinformasiya xarakterli qarayaxma kampaniyası təşkil edirlər. Sanki bu kimi ifşaedici məqamlar onların maraqlarına xidmət edir.

ANALİZ

### “Oğru elə bağırdı ki, doğrunun bağrı çatladı”

Fikir verin, AXCP İdarə Heyətinin üzvü, partiya sədrinin müavini Ayaz Məhərrəmov başqasının evinə qanunsuz olaraq daxil olduğuna görə Şirvan şəhərində polis əməkdaşları tərəfindən saxlanılıb. Bu zəruri tədbiri Ə.Kərimli və trol dəstəsi onlara göstərilən “siyasi təzyiq” vasitəsi olaraq qiymətləndirməyə çalışırlar. Lakin polisin açıqladığı məlumatlar ilginc faktları ortaya qoyur. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən “Səs” qəzetinə bildirilib ki, iyunun 6-da saat 23 radələrində DİN-in “102 Zəng Mərkəzi”nə Şirvan şəhərində evlərin birinə oğurluq məqsədilə naməlum şəxsin daxil olması və bunun yaşayış sahəsində mövcud olan kameraya düşməsi ilə bağlı müraciəti daxil olub: “Şirvan şəhər polis əməkdaşları tərəfindən çağırış üzrə həmin ünvanda olan şəxs saxlanılaraq polis şöbəsinə gətirilib. Araşdırmalarla həmin şəxsin Bakı şəhər sakini, əvvəllər dəfələrlə məhkum olunan, 1982-ci il təvəllüdlü Məhərrəmov Ayaz Həbib oğlu olması müəyyən edilib. Fakt üzrə araşdırma aparılır”.

Göründüyü kimi, polis öz vəzifə borcunu yerinə yetirib. Yəni Daxili İşlər Nazirliyinin “102 Zəng Mərkəzi”nə edilən zəng əsasında göstərilən ünvana gedib və oğrunu iş başında yaxalayıb. Ə.Kərimli və ətrafında olan qarayçı dəstəsi isə yeni qrant xəttinin açılması fürsətindən yaralanmaq üçün geniş formada qarayaxma kampaniyası aparırlar. Belə demək mümkünsə, “Oğru elə bağırdı ki, doğrunun bağrı çatladı” məsəlinə uyğun olaraq polisin haqq işinə kölgə salmağa çalışır və oğurluğa cəhd edən sədr müavinini təmizə çıxartmağa çalışırlar. Halbuki, polisin yaydığı məlumatda da qeyd edildiyi kimi, A.Məhərrəmov dəfələrlə törətdiyi cinayət əməlinə görə həbs olunub və məhkumluq həyatı yaşayıb. A.Məhərrəmov törətdiyi cinayət əməllərinin əsas hissəsini oğurluq əməllərinə görə edib. Bu səbəbdən də, oğurluğa öyrəncəli olan A.Məhərrəmovun daha bir oğurluq etməsi təəccüblü görünə bilməz. Ə.Kərimlinin və trol dəstəsinin oğrunu müdafiə etməyə cəhd etmələri isə elə oğru ilə şərik olmaq deməkdir. Diqqətçəkən məqam ondan ibarətdir ki, Ə.Kərimlinin təmsil olunduğu şəbəkənin bütün təmsilçiləri verilən tezisə uyğun olaraq oğrunun xeyrinə hay-küy qaldırırlar. Bu məsələdə onların yanında şeytan yuvası hesab edilən “Azadlıq” radiosu xüsusi fəallığı ilə yer alır. “Azadlıq” radiosu ucun alıb ucuzluğa gedir, düyünlər hörür, tapmacalar ifadə edir və nəhayət, nümayiş etdirməyə çalışır ki, guya həbs olunan və sonradan sərbəst buraxılan Ə.Kərimlinin müavini Ayaz Məhərrəm şüşə kimi şəffafdır. Radio məsələ ilə bağlı “dərin təhlil”lərində oğrunu “siyasi məhbus” olaraq təqdim etməyə çalışır. Bəzi özünəməxsus araşdırmalar da aparır.

Sonda Ə.Kərimlinin dəfələrlə uydurduğu yalanları qeyd edir və bildirir ki, guya Azərbaycan həbsxanalarında 250-300 nəfər “siyasi məhbus” var. Fəaliyyəti yalnız yalan və böhtan üzərində qurulan radionun fikirləri təbin ki, qəbul edilən deyil. Həm də cəmiyyət bu radionun AXCP sədri Əli Kərimlinin qara işlərini ört-basdır etməyə çalışan təbliğat maşını olduğunu anlayırlar. Ona görə də, “Azadlıq” radiosunun oğurluq üstündə yaxalanan A.Məhərrəmovun polis tərəfindən yaxalanmasına qeyri-ciddi reaksiya verib, cəfəng iddialarla çıxış etməsi boşboğazlıqdan və sifarişli şəkildə hay-küy qaldırmaqdan başqa bir şey deyil.

***İLHAM ƏLİYEV***



# Əlvida, nöqtə!

**Mətanət Məmmədova**

***Vaxtilə nöqtə bitmiş fikri ifadə edirdi. Lakin bu gün nöqtənin hüquqları pozulub, ona bitmiş fikri ifadə etməsi üçün əngəl yaradılıb. Belə qənaətə gəlmək olar ki, nöqtə də bəzi dəyərlər kimi dəbdən düşüb, öz yerində deyil, lazımsız yerlərdə hərdən görünən və tənhalaşan vergülün ardınca göndərilib. Qısası, nöqtəyə “əlvida”,- deyilib.***

Bu gün cümlənin sonuna nöqtə qoymaq artıq bitmiş fikri deyil, bitmiş münasibətləri, eləcə də “ yazma” və yaxud “çox danışma” mənasını ifadə edir. Yazıq nöqtə üçün əngəl yaradanlar, ona funksiyasını həyata keçirməyə maneçilik törədənlər onu o qədər gözdən salıblar ki, nöqtə olub bir düşmən. Cümlənin sonuna nöqtə qoymaq bu gün saygısızlıq, yazışmanı dayandırmaq, bitirmək anlamına gətirilib.

Bax, beləcə, yazıda hərfləri ixtisara salmaqla, durğu işarələrini lazımsız hesab etməklə zaman-zaman dilimizin qrammatik qanunlarına sitəm çəkirik. Təəssüf ki, bunun fərqində olanlar fərqində olmayanlardan o qədər azdır ki, artıq onların bu barədə üsyanını dinləyən də yoxdur. Lakin anlamaq o qədər də çətin deyil ki, dilin gözəlliyi onun qaydalarına əməl etməkdir. Və bu, hər kəsin borcudur.

Mirzə Fətəli Axundzadə 1875-ci il aprelin 21-də Həsənbəy Zərdabiyə göndərdiyi məktubda yazırdı: Sizin qəzetinizin əsas məziyyətlərindən biri ifadənin gözəlliyi, ibarələrin zərifliyi və aydınlığı, orfoqrafiyanın düzgünlüyü olmalıdır. Çünki qəzetiniz başqa məsələlərlə yanaşı, Azərbaycan yazısını düzgün olmayan ifadələrdən təmizləməyə çalışmalı, bu dildə yazan bütün adamlar üçün nümunə olmalıdır. Orfoqrafiyaya gəlincə, sizin gələcəkdə təyin edəcəyiniz mühərrir mənim Azərbaycan dilində olan komediyalarımın orfoqrafiyasına riayət etməlidir.

Bəli, M.F.Axundzadə bu dəyərli fikirləri ilə mətbuatın dilimizin gözəlliyini, qrammatik qanunlarını qorumasını məsləhət görürdüsə, filologiya elmləri doktoru, professor Nəsir Əhmədli isə deyirdi ki, ixtisasından asılı olmayaraq hər bir ziyalı ana dilini mükəmməl bilməli, yeri gəldikcə onun təbliği ilə də məşğul olmalıdır.

Təəssüf ki, bu gün ən yüksək bal toplayaraq universitetlərdə təhsil alan gənclərin əksəriyyəti belə dilin qrammatik qanunlarına riayət edə bilmir. Sosial şəbəkələrdə yazışmalar isə qrammatik qanunları birdəfəlik baltalayıb, durğu işarələrini torpağa gömüb.

Kimsə inciyər deyə artıq cümlənin sonunda nöqtə təsadüf nəticəsində rast gəlmək olur. Bunu bilən bilir, bilməyən də bilsin ki, cümlənin sonuna nöqtə qoydunsa, bu, böyük saygısızlıq kimi qarşılanır. Yəni ki, söhbəti kəs, ta bəsdir.

Maraqlıdır, deyilmi? Nöqtəyə, “əlvida” dedik. Bəs görəsən qarşıda bizi dilimizin qrammatikası ilə bağlı daha hansı yenilik gözləyir? Axı bu yeniliklər dilimizin qrammatikasını qram-qram zədələyir. Neçə ki, Həsən bəy Zərdabi deyirdi ki, bir bulağın suyunun altına nə qədər bərk daş qoysan, bir neçə ildən sonra su tökülməkdən o bərk daş mürur ilə əriyib deşilir... Deməli, bu qramlar bir də baxıb görəcəyik ki, dağ boyda olub və qrammatikanın da sinəsinə dağ çəkib.

Vaxt tapsaq, bəlkə Azərbaycan dilinin qrammatikasının günümüzdə nə vəziyyətdə olduğunu nəzərdən keçirək? Həm mətbuatda, həm sosial şəbəkələrdə...

# “Son dövrlərdə adi səbəblərə görə boşananların sayı artıb”

***“Son illərdə boşananların sayı kəskin artıb. Cütlüklər hər hansısa bir səbəb olmadan da boşanırlar”. Bu sözləri SİA-ya danışan psixoloq Nabat Mirzəyeva deyib. Onun sözlərinə görə, boşanan şəxslərin əksəriyyəti xasiyyətlərinin uyğun gəlmədiyi və ya istədiyi nəyisə etmədiyinə görə ayrıldıqlarını deyirlər: “Sözsüz ki, boşanmaların böyük səbəbləri də ola bilər. Əgər ailədə fiziki şiddət, mənəvi zorakılıq varsa, insanın mənliyinə toxunulan ağır sözlər deyilirsə, o zaman boşanmanı qəbul etmək olar. Çünki artıq burada ailə dəyərlərindən söhbət belə gedə bilməz”.***



AYDINLIQ GƏTİRİLDİ

Psixoloq bildirib ki, son dövrlərdə adi səbəblərə görə boşananların da sayı artıb: ”Çünki son illərdə ”azadlıq” anlayışı yaranıb. Yəni ”boşan rahat yaşa”, ”ailəli olmaq məhkum olmağa bənzəyir” kimi cəfəng fikirlər yaranmağa başlayıb. Bu fikirləri səslətdirənlər evliliyə də, evliliyin davam etdirilməsinə də qarşı çıxırlar.

Hətta evli şəxsləri boşanmağa sövq edirlər. Təəssüf ki, qarşı cinslə münasibətdə olmağı "rahat yaşamaq" kimi təqdim edənlər var. Üstəlik, bunu "azadlıq" kimi qəbul edirlər. Ona görə də boşanmaların sayının artması yanlış ”azadlıq” anlayışı olduğunu düşünürəm. Amma azadlıq bir neçə şəxslə münasibətdə olmaq deyil. Başqa insanlarla bərabər olmaq üçün ailəni dağıtmağa isə əlsa dəyməz”.

Psixoloq sosial şəbəkələrin də boşanmağa təsir etdiyini diqqətə çatdırıb: ”Sosial şəbəkələrdə ”hər zaman özünə dəyər ver, sən hər şeydən, hər kəsdən önəmlisən” kimi vurğulanan fikirlər ailəni də artıq sıradanlaşdırmağa gətirib çıxarır. Nəticədə, ani, hətta sadə bir səbəb olan kimi tərəflər dözməyərək boşanmağa qərar verirlər. Həmçinin, teleseriallar da ailənin artıq dəyərli olmadığı və evli şəxslərin həyat yoldaşlarına çox rahatlıqla xəyanət etməsinin göstərilməsi boşanmalara səbəb ola bilir”.

***Ləman Sərraf***



# Kənddə qal, məşğulluğunu təmin et!



***Zaman-zaman kəndlərimiz boşalıb. İnsanlar təmiz, günəşli havanı, sərin bulaqları, yaşıl yamacları, zirvəsi buludlarla öpüşən dağları, güllü-çiçəkli düzləri qoyub şəhərlərə üz tutublar. Bu, bir neçə səbəbdən olub. Birincisi, təhsil almaq üçün şəhərlərə gedənlərin geri qayıtmaması səbəbindən. İkincisi, bir qrup insan işsizlik səbəbindən kəndini tərk edib, harada işini qura, ailə büdcəsini yarada bilibsə, orada yaşamağa başlayıb. Digər bir qrup insan isə kəndlərimizi tənbəllikdən tərk ediblər, şəhərdə rahat, ağır iş görmədən yaşamaq, gün keçirmək üçün.***

Beləliklə, bir də baxmışıq ki, kəndlərimizdə boş evlərin, qapısı qıfıllı həyətlərin sayı gündən-günə çoxalır. Kim nə edə bilər ki... İnsan qərarını vermiş, kəndi tərk etmişdir. Artıq onu saxlamaq gecdir. Ya qapılar birdəfəlik bağlanır, ya da ata-ana bir evin altında tək buraxılır. Oğul-qız üz tutur şəhərə... Bəzən "onları qınamaq da düzgün deyil. Çünki kəndlərdə iş yerləri yetərli qədər deyil",-deyənlər də olur. Lakin bəs özünüməşğuluq proqramı? Bununla axı istənilən işi qurmaq olar kəndlərdə. Ta ki, iradə və istək ola.

### Kəndləri boşalmağa qoymayın!

Necə ki, heç kimə qaynayıb-qarışa bilməyən atasız-anasız uşaq bir tərəfə çəkilər, sadəcə sakit-sakit, ürkək-ürkək baxar, kəndlərimizdə qapısı bağlı evlər, həyət-bacalar da həmin yetim uşaq təsirini bağışlayır adama. Yetim uşağın saçları tumar, könlü nəvaziş istədiyi kimi, kəndlərimizdəki boş evlər də insan əlinə möhtacdır. Həyətlərdəki ağaclar yetim uşaq kimi tumar, qayğı istər. Gözü sahibini axtarar. Lakin daha gecdir. O, evini də, həyətini də tərk etmiş, şəhərlərə üz tutmuşdur. Qapısının mal-heyvanını satıbsovmuş, toyuq-cücənin əl-ayağını kəsmiş, bar üstündə olan onlarla ağacı tərk edib getmişdir. Bu ağacların kölgəsini, altındakı samovar çayını, nənələrin əllərinin izi yaşayan xalçaların üstündə qohum-qonşu ilə deyib-gülməyi tərk edib getmişdir. İndi bu ağaclar o günləri yaman xatırlayır, ətrafa baxır, lakin heç kimi görməyəndə qolubudağı qırılır, yanına düşür.

Gəlir kölgəsində oturub deyib-gülən qohum-qonşulardan hərdən, ağaclara su vermək üçün, meyvəsindən dərib onu tərk edən sahibinə göndərmək üçün. Lakin ağaclar sahibindən aldığı nəvazişi bu insanlardan ala bilmir. Onların tumarı nədənsə əvvəlki tumara bənzəmir. Yetimləşir ağaclar, boynu çiynində, sakitcə bir kənara çəkilir, yol gözləyir. Sahibinin nə vaxtsa qayıdacağı ümidi ilə gözləri yollara dikilir...

### Göz yolda, könül intizarda...

Kənddən insanların ayrılma səbəbləri barədə yuxarıda danışdıq. Bəli, birinci təhsil üçün, dedik. Təhsil almaq üçün gənc şəhərə üz tutur və yenidən kəndə qayıtmır. Belə hallar kəndlərimizdə çox sayda baş verir. Ya oğlumuz, ya da qızımız olsun, təhsildən sonra şəhərdə qalıb işləmək, təhsilini davam etdirmək qərarına gəlir. Və bir daha kəndə geri dönmür. Kəndi ikinci tərk edənlər isə işsizlik üzündən gedənlərdir.

Məlumdur ki, hələ sovet dövründən kəndlərimiz diqqətdən kənarda qalmış, təhsil, səhiyyə, mədəniyyət və digər sahələr üzrə az sayda iş yerləri olmuşdur. Bu iş yerləri də təbii ki, zamanla tutulur. Gənc bir ailə başçısı nə etməlidir? Təbii ki, işləməli, ailəsini dolandırmalıdır. Sual oluna bilər ki, kəndin kənd işləri var da, onlarla niyə məşğul olmurlar. Kənd işləri ilə məşğul olanlar az deyil. Kənd camaatı bu işlər olmasa, necə dolana bilərlər. Lakin təhsil alıb, kəndə qayıdan insanlar da var ki, kənd işləri ilə yanaşı, həm də təhsil aldığı sahə üzrə çalışmaq istəyir. Belə olan halda isə iş yeri tapmır, məcburən üz tutur şəhərlərə. Bəli, işsizlik səbəbindən kənddən gedən insan özünə iş tapır, işləyir, evini qurur. Beləliklə, o da qayıtmır.

Üçüncü səbəb isə tənbəllik idi. İnsanlar var ki, tənbəllikdən həyatlarını nə kənddə, nə də şəhərdə qura bilir. Kəndin ağır iş-gücünə tab gətirə bilməyən gənc və ya orta yaşlı insan qaçıb canını qurtarmaq istəyir. Axı kənddə mal-heyvan saxlamalıdır, səhər o başdan yuxusuna haram qatıb ayağa qalxmalıdır. Bunun torpağı var, əkini-biçini var, ot biçini var, mal növbəsi, heyvan növbəsi var. Tənbəllik isə adamı basıb da, istəyir elə bir iş tapsın ki, bu qədər əziyyət çəkməsin. Düşünür-daşınır, deyir gedim şəhərdə fabrikdə, zavodda bir işə düzəlim, rahatlıq tapım. Əşi, bu qədər də iş olar?

Beləliklə, üz tutur



şəhərə. Lakin tənbəllik elə burada da özünü göstərir. Adam haraya üz tutursa, ona təklif olunan işlə razılaşmır ki, razılaşmır. Ay bu iş ağırdır, ay bunun iş saatı çox geç bitir, ay burada işləmək üçün sübh çağından yola düşməlisən ki, vaxtında çata biləsən. Beləbelə, bir də baxıb görür ki, kənddən gətirdikləri də bitir, hələ bir qəpik pul qazana bilməyib. Ailə-uşağın da gözü onun əlindədir. Bu an başa düşür ki, yox, günah nə kənddə, nə də şəhərdədir. Günah onun özündədir ki, tənbəlliyin daşını ata bilmir.

Tənbəllik tək kişilərə yox, həm də qadınlara aiddir. Kəndlərimizdə elə qadınlar var ki, ailəsini Allahın yurdumuza bəxş etdiyi nemətlərlə dolandırır. Yəni, ta yazdan qar yerə düşənə kimi, çölün həm yeməli, həm dərman bitkisi kimi istifadə olunan ot-avarını yığıb, qurudur, bazara çıxarır, qazanc əldə edir. Hələ ailələr tanıyıram ki, ər-arvad, həm də övladları hamısı bu işlə məşğul olur. Həyətlərində də mal-qara, toyuq-cücə saxlamaqla digər tələbatlarını da bu yolla ödəyirlər. Süd, pendir, şor, kərə, qatıqla, toyuq, yumurta satıb digər ərzaq məhsulları alır, kənddə çoxlarından yaxşı dolanırlar. Necə deyərlər, birlikləri dirlikləri olur.

Kəndlərimiz isə hər zaman gedənlərin geri qayıtmasını gözləyir: gözü yolda, könlü intizarda .

### Özünüməşğulluq proqramı həm məşğulluğu təmin edir, həm də kəndlərin boşalmasının qarşısını alır

Artıq illərdir ki, aztəminatlı ailələrin sosial rifahını yüksəltmək məqsədilə sosial siyasət sahəsində özünüməşğulluq tədbirlərinə xüsusi yer ayrılır. Azərbaycan Respublikası Prezidentinin "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamına əsasən özünüməşğulluq proqramı həyata keçirilir.



Bu proqram çərçivəsində aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və ya inkişaf etdirmək üçün dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) dəstək göstərilir. Ailə təqdim etdiyi biznes plana uyğun olaraq istehsal və ya xidmət avadanlıqları ilə təmin edilir.

Bu proqram şəhərlərimizlə yanaşı, kəndlərimizdə də artıq öz faydasını verməkdədir. Bir tərəfdən dövlətdən asılılığın-ünvanlı sosial yardımların zaman-zaman azaldılmasına, digər bir tərəfdən isə insanın özünün çalışıb qazanmasına xidmət edən özünüməşğulluq proqramı işsiz aztəminatlı ailələrin həyatında böyük rol oynayır. Proqram dövlətin aktiv dəstəyi ilə özünüməşğulluğun və kiçik ailə təsərrüfatlarının yaradılmasının təmin edilməsinə, işsizlikdən kiçik biznesə çıxışın dəstəklənməsinə xidmət edir. Sərəncamdan ötən illər ərzində minlərlə ailə özünüməşğulluq proqramına cəlb edilib. Kəndlərimizdə onlarla ailələr tanıyırıq ki, bu proqramdan bəhrələnərək artıq kiçik bizneslərini, ailə təsərrüfatlarını qura biliblər. Hətta bu proqram kəndlərimizə qayıdışın da səbəbkarı olub. Proqramın tətbiqindən sonra rayon Məşğulluq Agentliklərində işsiz kimi qeydiyyatda dayanan yüzlərlə insan kəndinə qayıdıb və bu sosial xidmətdən mənfəətlənərək iş qura, məşğulluğunu təmin edə bilib. Onlar artıq bazarlara məhsul çıxarır, qazanc əldə edir, ailə büdcəsini zənginləşdirirlər.

### Gələnlər geri dönür...

Bəli, bir zamanlar kəndlərdən şəhərlərə gələnlərin əksəriyyəti artıq şəhərləri tərk edib kəndlərə üz tuturlar. Bunun də bəzi səbəbləri var. Birincisi, artıq müstəqillik illərində quruculuqla, yenidənqurma ilə kəndlərimizdə də şəhərlərimiz kimi hərtərəfli şərait yaradılıb. Qazı, elektrik enerjisi, rahat yolları, məktəbi, tibb məntəqəsi, kitabxanası, klubu, interneti olan kəndlərimiz yaşamaq üçün ideal məkandır. Çünki şəhərlərimizdə tapa bilmədiyimiz təmiz hava, saf məhsullar kəndlərimizdə bol-boldur. Bu səbəbdən də insanlar kəndlərə üz tuturlar. İkinci tərəfdən, illərlə şəhərdə yaşayıb hələ də həyat şəraitini kənddə qoyub gəldiyi şərait qədər qura bilməyən insanlar böyük peşmançılıq hissi ilə yenidən kəndə qayıdırlar. Tikili evlərinə, həyət-bacalarına sahib çıxırlar. Məsələn, Bakının mərkəzdən uzaq bir yerində illərlə yaşayan adam müqayisə edəndə kəndinin, oradakı şəraitinin buradakından daha yaxşı olduğunu anlayır və geri dönür.

Üçüncü tərəfdən isə, indi bütün dünyada ərzaq böhranı, qlobal bahalaşma baş verir. Bu, bizim ölkəmizə də sirayət edir. Qiymətlər gündən-günə bahalaşır, dolanışıq çətinləşir. Kəndlərimizdə isə əkilmək üçün torpaq sahələri insanların yolunu gözləyir. İnsanlar da bu vəziyyətdən xəbərdardılar və yaxşı dolanışığın şəhərdən çox kəndlərdə olduğunu çox yaxşı dərk edirlər. Elə bu dərketmə ilə də kəndlərimizə qayıdırlar.

Torpaq onları geri çağırır. Deyir ki, gəl, sən mənə tər ver, mən sənə zər verim. Əz məni, əzizləyim səni. Həyatını nura çevirim, həyət-bacana bolluq gətirim. Həyat tərzini dəyişim. Evin, maşının, hər bir şeyin olsun. Ta ki, gəl, əlinə bel, dırmıq, kərənti al, köksümə endir onları, o köksdən sənə yeni həyat boylanacaq. Çək ciyərlərinə kəndinin təmiz havasını, çıx dağlara, düzlərə, yamaclara, bax, gör buradakı gözəllikləri harada görmüsən. Bu çiçəklərin rayihəsi qarışmış ətri harada almısan? Qayıt, qayıt kəndinə, təndir çörəyindən dürmək tut, buz bulaqlardan ovuc-ovuc iç, samovar sal ağacların kölgəsində, əlini uzat ağaclardan meyvə dər, ye. Saf məhsullardan süfrənə düz. Sübh çağı yuxudan qalx, get işinin ardınca. Zəhmətə qatlaş ki, o səni həmişə uca tutsun. Sənə nə lazımdır, ey insan. Bundan gözəl həyat varmı?..

***Mətanət Məmmədova***

***Ermənistanda baş verən son qarşıdurmalardan da aydın görünür ki, bu ölkədəki revanşistlər ciddi şəkildə fəallaşıblar. Xüsusilə Azərbaycanla Ermənistan arasında sərhədlərin demarkasiya prosesinə start verildikdən sonra bu qarşıdurma daha da genişlənib. Belə ki, son bir ayda iki ölkə arasında münasibətlərin normallaşmasının əleyhinə çıxış edən qüvvələr keşiş Baqrat Qalstanyanın yaratdığı «Vətən naminə Tavuş» hərəkatının ətrafında birləşərək mitinq və küçə yürüşləri keçirirlər. Görünən odur ki, Ermənistanın keçmiş prezidentləri, «Qarabağ klanı»nın əsas liderləri Robert Koçaryanla, Serj Sarkisyan bu qarşıdurmanın əsas qüvvələridir.***




# Paşinyan revanşistləri birdəfəlik susdurmaq üçün yeni imkanlar qazanır

Onların qorxuları demarkasiya prosesinin ardınca sülh müqaviləsinin imzalanmasının gəlməsidir. Sülh müqaviləsi isə iki ölkə arasında bir sıra sahələrdə əlaqələrin qurulmasına imkan yaradacaq. Təbii ki, hadisələrin sonrakı inkişafı Azərbaycana qarşı müxtəlif hərbi cinayətlər törətmiş Koçaryan və Sarkisyan barədə cinayət işinin başladılması, hətta onların Bakıya ekstradisiya edilməsinədək uzana bilər. Keçmiş xuntanın rəhbərləri ilə birgə Bakı təcridxanalarında «dincəlmək» qorxusu onları məcbur edir ki, Ermənistanın mövcud hakimiyyətini devirsinlər. Sonrakı prosesdə isə o niyyətdədirlər ki, müvəqqəti keçid hökuməti yaradaraq yenidən saxta seçkilər keçirməklə hakimiyyəti zəbt etsinlər. Xəyallarında qurduqları müvəqqəti hökumətlə bağlı açıqlamalarında Sarkisyan bildirib ki, Baqratı tam dəstəkləyirəm və onun təklif edəcəyi namizədi mən də dəstəkləyəcəyəm. Bu isə o deməkdir ki, Qalstanyan bir il müddətinə müvəqqəti hökumətə rəhbərlik edəcək, sonra isə sükanı bütün tərəflərin razılaşdığı şəxsə ötürəcək. Əslində bir müddət əvvəl də vahid namizədlə bağlı hərəkat və onun tərəfdarlarının ciddi problemləri var idi. Müxtəlif açıqlamaların analizi də sübut edir ki, hazırda bu problem davam edir və tərəflər vahid namizəd məsələsində ortaq fikrə gələ bilmirlər. Təsadüfi deyil ki, erməni keşiş də məsələ ilə bağlı açıqlama verəndə bir illik xəyali müvəqqəti hökumətdən sonra yenidən bu posta seçilə biləcəyinə işarə etmişdi.





Sabiq prezident, Xocalı soyqırımının təşkilatçısı və iştirakçısı Serj Sarkisyan mətbuata müsahibələrində bildirib ki, sülh prosesində Alma-Ata Bəyannaməsi onun ölkəsinə sərf etmir. Həmçinin Sarkisyanın qənaətinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın baş naziri Nikol Paşinyanla beynəlxalq aktorların vasitəçiliyi olmadan birbaşa danışıqlar aparması da Hayastanın xeyrinə deyil. Onun həyasız iddiasına görə, Nikol Paşinyanın hakimiyyətini devirməklə xaricdəki ermənipərəst vasitəçiləri də müzakirələrə qatmaq olar.



Təbii ki, sülh danışıqlarına yenidən vasitəçiləri cəlb etmək bu prosesi ləngitməyə xidmət edir. Heç də təsadüfi deyil ki, müxalifətçi deputat Suren Petrosyan sərhədlərin demarkasiya prosesi ilə bağlı 30 illik fəaliyyəti dövründə ancaq ermənipərəst mövqe sərgiləyən ATƏT-in keçmiş Minsk qrupunun adını çəkib.

Qeyd edək ki, hələ 2023-cü ildən Prezident İlham Əliyev Ermənistanla danışıqların birbaşa -vasitəçilərsiz olması ilə bağlı mövqeyini sərgiləmişdi. Dövlətimizin başçısı bildirmişdi ki, artıq vasitəçilərə ehtiyac yoxdur və Azərbaycanla Ermənistan sülh sazişini beynəlxalq hüquq normalarına və ərazi bütövlüyü prinsiplərinə uyğun həll etməlidirlər. Əks halda bölgədə yenidən müharibə başlayar ki, bu da Ermənistanın tamamilə məhv olmasına gətirib çıxara bilər. Ona görə də rəsmi İrəvan bu gün revanşistlərdən daha ağıllı tərpənərək Azərbaycanın haqlı şərtləri ilə razılaşmağa meyillidir.

Serj Sarkisyan bəyanatlarında Qalstanyanın rəhbərlik etdiyi hərəkatı sadəcə ölkənin xilası üçün dəstəklədiyini bildirir. Ancaq siyasi şərhçilərin qənaətincə, Ermənistanın sabiq prezidenti yenidən hakimiyyəti zəbt etməyə çalışır. Burada bir məqama da diqqət yetirmək lazımdır ki, Serj Sarkisyandan fərqli olaraq Robert Koçaryan mitinqlərə oğlu vasitəsilə müdaxilə edir. Hətta onun oğlu küçə yürüşlərinə və təxribatlara qoşulmaqla göstərmək istəyir ki, atası bu hərəkata siyasi dəstək verir.

Düzdür, Robert Koçaryan hələ də Nikol Paşinyandan ciddi şəkildə qorxur. Çünki hakimiyyətdə olduğu 10 il ərzində həm törətdiyi qətllərə, həm də korrupsiya əməllərinə görə onu məhz Paşinyan həbsə atdırmışdı. Hətta Paşinyan Koçaryanın həbsdən azad edilməsi ilə bağlı Rusiya Prezidenti Vladimir Putinin xahişini də rədd etmişdi. Bütün bunlara rəğmən Ermənistandakı real siyasi vəziyyət belədir ki, «Vətən naminə Tavuş» hərəkatı ciddi dəstək qazanmadığı üçün iflasa uğrayacaq.

***E. Zaman***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Okeanların okean boyda dərdi

***Tarixdə 8 iyun, Ümumdünya Okeanlar Günü tarixi 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən BMT-nin "Ətraf mühit və inkişaf" konfransında elan olunub. Dənizlər planetimizin üçdə ikisini əhatə edir və bizi qida, enerji kimi təməl ehtiyaclarla təmin edir. Amma planetimizin var olması üçün təhlükəsizliyi vacib olan sualtı dünya hər gün daha çox təhlükədədir. İnsan faktorunun təsiri ilə dəyişən iqlim şəraiti okeanlardan da yan keçmir.***

Dünyada sənayeləşmə prosesi ilə əlaqədar karbon qazı emissiyalarının miqdarı gündən-günə artır, Dənizlər karbon qazını udduğu üçün iqlim dəyişikliyini ləngidir, lakin baha başa gəlir. Karbon qazı suya qarışanda karbon turşusu suya keçir, su turş olur və onun pH dəyəri azalır. Dəniz suyunun pH dəyəri 1870-ci ildə 8,2 idisə, indi 8,1-dir. 2100-cü ildə dənizlərdə PH dəyərinin 7,7 faizə düşəcəyi gözlənilir.

İlk baxışdan bu dəyərlərin azalması çox kiçik rəqəm kimi görünə bilər. Amma bu rəqəmlər dəniz suyunun turşuluğunun 150 faiz artacağını göstərir. Bir çox dəniz heyvanları, xüsusilə də yumşaq və onurğasız heyvanlar bu vəziyyətdə çoxala bilməyəcək və bir müddət sonra nəsli kəsiləcək. Bu vəziyyətin ilk əlamətləri 2005-ci ildə ABŞ-ın Kaliforniya sahillərindəki mirvari molyuskası fermalarında müşahidə edildi. Dəniz suyu molyuska sürfələri üçün çox turş olmuşdu. Sürfələr öləndə bu sənaye növü də yox oldu. Okeanların çirklənməsinin qarşısını almaq üçün karbon qazı emissiyalarını azaltmaq lazımdır.

Dənizlər təkcə karbon qazını deyil, həm də istiliyi özünə çəkib saxlayır. İnsanların yaratdığı karbon qazı emissiyaları istiləşməyə səbəb olur və bu istiliyin 93 faizini dənizlər saxlayır. Bu, dəniz sularının mütləq istiləşməsi deməkdir. 1900-2008-ci illər arasında dəniz səthinin temperaturu qlobal miqyasda 0,62 °C artıb. Əslində, bəzi bölgələrdə bu nisbət 2,1 °C-ə çatdı. Bu, su altında yaşayan mərcanlar kimi bir çox orqanizmin həyatını təhlükə altına salır. Mərcanların içində fotosintez edən çoxrəngli yosunlar var. Lakin dəniz suyu çox istiləşdikdə mərcanlar bu yosunları atırlar və aclıqdan ölürlər. Bu proses mərcanların ağarması adlanır. Avstraliya sahillərindəki Great Barrier Reef-də mərcanların üçdə biri artıq ağarıb. Yalnız karbon qazı emissiyalarını azaltmaqla dəniz suyunun temperaturunun artmasının qarşısını almaq olar.





## Artıq balıqlar sağlam qida deyil

Sənaye müəssisələrinin çirkab sularının dənizə axıdılması səbəbindən təhlükəli kimyəvi maddələrlə yanaşı, qurğuşun və civə kimi ağır metallar, çətin təmizlənən üzvi zərərli maddələr də dənizlərə daxil olur. Yağış da kənd təsərrüfatı gübrələrini, bəzi qida maddələrini də dənizə ötürür. Nitrat və fosfat kimi qida maddələri ilə zənginləşmə təbii yolla baş verə bilər, lakin dənizdəki bütün qida maddələrinin təxminən 80%-i kanalizasiya, sənaye tullantıları, şəhər tullantıları və kənd təsərrüfatı axıntı olaraq yaranır. Qalanları əsasən nəqliyyat, sənaye, elektrik istehsalı və istilik nəticəsində mədən yanacaqlarının yandırılması zamanı ayrılan azot qazlarından meydana gəlir. Bunlar balinaların, köpək balıqlarının və digər dəniz heyvanlarının yağında toplanır və nəticədə qida zənciri ilə insan orqanizminə ötürülür.

Əslində, balıq və digər dəniz məhsulları sağlam qidalar hesab olunur və bütün dünyada bir çox insan bu proteinlə zəngin qidaların sayəsində ac qalmır. Əvvəllər dənizdən yalnız təbiətin verə bildiyi qədər məhsul çıxarılırdı. Amma indi bu balans itib, insanlar daha çoxunu istəyir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, 2015-ci ildə dənizlərdən 81 milyon tondan çox balıq və digər dəniz məhsulları çıxarılıb. Bu göstərici 2014-cü illə müqayisədə 1,7 faiz artım deməkdir. Bu rəqəmlər göstərir ki, hazırda dünyada balıq və digər dəniz məhsulları ehtiyatlarının üçdə biri tükənib, yarısı isə son hədddədir. Dünyanın ən yaxşı balıqçılıq ölkələri sırasına Çin, İndoneziya və ABŞ daxildir. Balıq və digər dəniz məhsullarının qlobal ovlanmasının 80 faizi əsasən sənayeləşən 23 ölkəyə məxsusdur.

Uzun müddət belə davam etdikdən sonra balıqçılıq təsərrüfatları yaradılaraq okeanların qorunmasını təmin etmək fikri meydana çıxdı. Təsərrüfatlarda balıqlar artırılacaq, tələbat ödəniləcək, beləcə okeanlardan normadan çox balıq tutulmasının qarşısı alınacaqdı. Lakin bu təsərrüfatlarda yetişdirilən balıqların ekoloji cəhətdən sağlam olmadığı məlumdur, xüsusi dərmanlarla, normadan artıq məhsul ala bilmək üçün artırılan balıqlar sağlam qida deyil. Bundan əlavə, bu təsərrüfatların hamısı ətraf əraziləri, dolayısı ilə ekologiyanıdərmanlarla çirkləndirir. Həmçinin burada balıq xəstəlikləri də daha asan yayılır, çirkab suları dənizə axıdıldığından xəstəlik dəniz canlılarına da ötürülür.

## Planetin zibilxanası okeanlardır

Okeanlar uzun illərdir ki, dənizçilərin, nəhəng gəmilərin və sahilyanı şəhərlərin zibilliyi olub. Hazırda məlumatlılığın artmasına baxmayaraq, okeanlarda hələ də böyük miqdarda zibil yığılır. Okeanlarda plastik çirklənmə ilə bağlı araşdırma aparan bir qrup alim 1979-cu ildən bəri toplanan tullantıların statistikası barədə qeydləri təhlil edib. Nəticələrə görə okeanlarda dünyanın təxminən 70 faizini əhatə edən - təxminən 171 trilyon ədəd plastik-polietilen tullantı var. Alimlər xəbərdarlıq edirlər ki, okeanlardakı plastik sıxlığı ilə bağlı heç bir tədbir görülməsə, tullantılar 2040-cı ilə qədər təxminən 3 dəfə arta bilər.






Araşdırmanın müəllifi 5 Gyres İnstitutunun Dr. Markus Eriksen, 2005-ci ildə okeanları çirkləndirən plastik sayının 16 trilyon olduğu halda, bu rəqəmin 18 il ərzində təqribən 171 trilyona yüksəldiyini bildirir. Eriksen, 2005-ci ildən sonra baş verən ciddi artımı təbiəti qoruma proqramlarına etinasız yanaşılması, həmçinin indiyədək bu dərəcədə dərin araşdırılma aparılmaması ilə bağlayır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
8 iyun
2024-cü il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Zamanın qədrini necə bilək?



**MÜNASİBƏT**

***“Bu dəqiqə bütün əhali üçün, xüsusilə gənclik üçün ”Zamanın qədrini necə bilək?” sualından aktual sual yoxdur”. Bu sözləri SİA-ya açıqlamasında şair, publisist, sosioloq Əhməd Qəşəmoğlu deyib. O bildirib ki, 30 il bundan əvvəl yazdığım şeirin adı belə idi: ”Vaxtım yox, vaxt itirməyə”: ”İnsan nə vaxt ki, hiss edir, vaxt itirməyə vaxt ayırır, bu, xoşagəlməz haldır. İnsan gərək ömrünü elə sürsün ki, o, zamanın hər bir saatından, dəqiqəsindən düzgün istifadə edə bilsin.***

Gəncliyimdə avtobus, metroda gözləyəndə çalışırdım ki, bu vaxtdan da istifadə edim. Evdə kağıza sözləri yazırdım, yol gedərkən dil öyrənirdim. 40 dəqiqə, 1 saat vaxt itirəcəksənsə, bu vaxtdan məhsuldar istifadə etmək olar. 40 dəqiqənin sonunda əgər yaddaşında 15-20 söz qalırdısa, bu artıq böyük iş idi. Evdə rahat vaxtda daha əhatəli işlərlə məşğul olmaq olar. Hansı ki, ev şəraiti tələb olunur. Yaxud da şeir öyrənmək olar, başqa nəsihətli bir şey oxumaq olar. 10 ilə yaxın Moskvada yaşamışam. Moskvada metroya minəndə görürdüm ki, əhalinin əksəriyyəti bədii ədəbiyyat oxuyur. Avtobusda məsləhət görmürəm, çünki hərəkəti gözə zərərdir. Amma indi Bakıda bizim metroya baxıram. Camaat ən yaxşı halda telefondan mənasız bir oyun oynayır. Bu oyunlar insana nəsə vermir”.

Onun sözlərinə görə, insan üçün ən mühüm meyar təqdim etdiyim ”Ahəngyol” elmində əsaslandırılıb: ”Hər bir insan çalışmalıdır həm özünün, həm də başqasının fiziki sağlamlığı yaxşılaşsın, mənəvi zənginliyi artsın və əməyə yaradıcı münasibət tələbatı daha da formalaşsın. Yəni bu gün bir iş görürsənsə, sabah o işi bu günkündən daha yaxşı görməyə çalış. Yemək bişirmək olsun, bənnalıq olsun, istəyir elmi məqalə olsun, çalışmaq lazımdır ki, daha yaradıcı yanaşasan. Ona görə də biz vaxtdan düzgün istifadə edəndə həmişə düşünməliyik ki, gördüyümüz işin üç amildən hansı birinə faydası var.

Mən boşuna bulvarda vaxt itirməyi başa düşmürəm. Bulvarda gəzmək səhhət üçün həkim məsləhətidirsə, təbii ki, yaxşı haldır. Bu dediyim daha çox gənclər üçün aktualdır. Amma 70-80 yaşındakı biri üçün də keçərlidir. Yaşlı insanın da faydası deyə bilər. Nəyisə qaydaya sala bilər, uşağa, gəncə nəsə öyrədə bilər, xatirələrini yaza bilər. Bunlar yoxdursa, istənilən vaxtı sən boş keçirirsən. Bəzən də ziyanlı keçirirsən. Bu üç amildən birinə zərbə vurursan. Əgər oturub boşuna kompüterin qarşısında saatlarla sosial şəbəkələrdə vaxt keçirirsənsə, bunlar hamısı vaxt itirməkdir. Bu gün Azərbaycanda ən mühüm problemlərdən biri də vaxt itkisidir. Bu istiqamətdə də ciddi sosial işlərin aparılmasına ehtiyac var”.

***Söylü Ağazadə***

# “Nar” Azərbaycanın bölgələrində İKT peşəkarlarını hazırlayır




***Sərfəli qiymətləri və sosial layihələri ilə bölgələrə xüsusi diqqət göstərən “Nar” bu dəfə Gəncədəyerləşən Azərbaycan Texnologiya Universitetində yüksək səviyyəli görüş keçirərək universitetlə ilk əməkdaşlıq layihəsinə start verdi.***

Uzunmüddətli əməkdaşlığı nəzərədə tutan anlaşma memorandumu çərçivəsində reallaşan ilk layihə “Nar”ın texniki heyəti tərəfindən texniki ixtisaslarda təhsil alan tələbələr üçün hazırlanan və keçirilən “Mobil rabitənin əsasları” təlimioldu. Qabaqcıl mobil texnologiyalara hakim olan sənaye mütəxəssislərinin hazırlanması və onların ixtisasların uyğun karyera qurması məqsədilə keçirilən təlim tələbələrə öz nəzəri biliklərini praktiki təcrübə ilə zənginləşdirməyə imkan verir.

Qeyd edək ki, “Nar” və Azərbaycan Texnologiya Universiteti bu ilin fevral ayında Anlaşma Memorandumu imzalayaraqtelekom sahəsinin peşəkarlarını hazırlamaq istiqamətində əməkdaşlığa başlayıb. Əməkdaşlığın əsas məqsədi Azərbaycanın regionlarında da rabitə sənayesi və akademik təhsil arasında körpü quraraq ölkənin rabitə peşəkarlarını hazırlamaqdır. “Nar”ın həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.

“Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# “Qalatasaray" Okan Burukla yeni müqavilə imzaladı



***“Qalatasaray" baş məşqçisi Okan Burukla yeni müqavilə imzalayıb. QOL.az xəbər verir ki, İstanbul təmsilçisi dünən 50 yaşlı mütəxəssis üçün imza mərasimi təşkil edib. Tədbir "Ali Sami Yen" stadionunda keçirilib. Tərəflər mərasimdə 2 illik müqaviləyə qol çəkiblər.***

Qeyd edək ki, Okan Buruk 2022-ci ildən ”Qalatasaray”ın baş məşqçisidir. O, komanda ilə ardıcıl 2 dəfə Superliqa çempionu olub. Həmçinin ”Qalatasaray” bu mövsüm Türkiyə Superkubokunu da qazanıb.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200